

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

№ 059 (6984)

5 aprel 2024-cü il.
Qiymәti 60 qәpik

**"İnsan hüquqları məsələsinə təkcə lokal deyil, bütövlükdə qlobal kontekstdə baxılması zəruridir"**


3

# Azərbaycan-Konqo:

## əməkdaşlığımız üçün yeni perspektivlər


2

Prezident İlham Əliyev: "Ölkələrimiz arasındakı əlaqələrdə yeni səhifə açılır"

# Azərbaycana qarşı ədalətsizlik və NÖVBƏTİ SİMASIZLIQ


8

### Azərbaycan yalnız deyil - Çavuşoğludan Fransaya mesaj


3

### Dünya enerjiyə qənaət rejiminə keçir


5

### Ermənistanın bitməyən mina terroru


9

**Seriallar, dizilər: aldıqları verdiklərindən çox...**


10

**XƏBƏRDARLIQ: "Əmək müqaviləsi bağlamasanız bu hüquqlardan məhrum olacaqsınız!"**



16

# Azərbaycan-Konqo: əməkdaşlığımız üçün yeni perspektivlər

*Prezident İlham Əliyev: "Ölkələrimiz arasındakı əlaqələrdə yeni səhifə açılır"*





Son dövrün hadisələrinə nəzər salsaq görərik ki, Azərbaycanın dünya birliyindəki əlaqələri daha da genişlənir, mövqeyi möhkəmlənir. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkəmiz bütün beynəlxalq qurumlarla açıq, konstruktiv, bərabərhüquqlu əməkdaşlığa üstünlük verib. Azərbaycan Prezidenti İlham Əliyevin 20 illik rəhbərliyi dövründə bu istiqamətdə uğurlu və ardıcıl addımlar atılıb. Məhz bunun nəticəsidir ki, ötən illər ərzində Azərbaycan, demək olar ki, bütün beynəlxalq və regional qurumlarda təmsil olunur. Azərbaycan regionda yeni əməkdaşlıq formatlarının əsas təşəbbüskarı kimi çıxış edir və dövlətimizin başçısının bütün səyləri regionun inkişafına, sabitliyin qorunub saxlanılmasına yönəlib. Dünya dövlətləri ilə qurduğu əlaqələr əmkdaşlığın daha da dərinləşməsinə töhfəsini verir.

### "KONQO İLƏ AZƏRBAYCAN ARASINDA GÜCLÜ DOSTLUQ ƏLAQƏLƏRİ YARADILACAQDIR"

Aprelin 4-də Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqessonun ölkəmizə səfəri Azərbaycanın dünya dövlətləri ilə əməkdaşlığının daha bir göstəricisidir. Vurğulayaq ki, Azərbaycan Respublikası və Konqo Demokratik Respublikası arasında diplomatik əlaqələr 23 sentyabr 2011-ci ildə Nyu-Yorkda imzalanmış "Azərbaycan Respublikası və Konqo Demokratik Respublikası arasında diplomatik əlaqələrin yaradılması haqqında Birgə Kommünike" əsasında qurulmuşdur.

Bu gün Azərbaycan ilə Konqo Respublikası arasında siyasi, sosial-iqtisadi, hərbi və digər sahələrdə ikitərəfli diplomatik münasibətlər mövcuddur. Səfər çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin və Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqessonun iştirakı ilə Azərbaycan-Konqo sənədlərinin imzalanması mövcud münasibətlərin davamlığına əsaslanır. Belə ki, hər iki dövlətin prezidentləri tərəfindən "Azərbaycan Respublikası və Konqo Respublikası arasında əməkdaşlıq haqqında Bəyannamə" imzalanıbdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso mətbuata bəyanatlarla çıxışlarında dövlət başçımız əməkdaşlıq haqqında imzalanan Bəyannamənin çox önəmli və sanballı bir sənəd olduğunu bildirib və bunun əməkdaşlığı perspektivlərini müəyyən edəcəyini diqqətə çəkib: "Əminəm ki, Konqo ilə Azərbaycan arasında güclü dostluq əlaqələri yaradılacaqdır.

Bu gün həm təkbətək görüş əsnasında, həm də ki, heyətlərin iştirakı ilə görüşdə bir çox önəmli məsələlər müzakirə olundu, fikir birliyi ifadə edildi. Bizim siyasi əlaqələrimizin bundan sonra uğurla inkişaf edəcəyinə heç kimdə şübhə yoxdur və bu gün imzalanmış əməkdaşlıq haqqında Bəyannamə bunu bir daha təsdiq edir.

"Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Konqo Milli Neft Şirkəti arasında təlim haqqında Anlaşma Memorandumu"nun, "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Konqo Milli Neft Şirkəti arasında "Congolaise de Raffinage" neft emalı zavodunun təkmilləşdirilməsi və genişləndirilməsi haqqında Şərtlər Razılığı"nın, "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Konqo Respublikasının Ətraf Mühit, Davamlı İnkişaf və Konqo Hövzəsi Nazirliyi arasında ətraf mühit, təbii sərvətlərin davamlı idarə olunması və iqlim dəyişmələri üzrə əməkdaşlıq sahəsində Niyyət Protokolu"nun imzalanması bu və digər sahələrdə əməkdaşlığın şaxələndirilməsində mühüm sənədlərdir.Səfər çərçivəsində eyni zamanda, təhsil, mədəniyyət və digər sahələrdəki əməkdaşlıq imkanlarını da müzakirə edilib.

### "BƏRPAOLUNAN ENERJİ SAHƏSİNDƏ, ENERGETİKA SAHƏSİNDƏ, MƏDƏNÇİLİK VƏ DİGƏR SAHƏLƏRDƏ ƏMƏKDAŞLIQ ÜÇÜN ÇOX GÖZƏL PERSPEKTİVLƏR VAR"

Ölkələr arasında müdafiə sənayesi sahəsində də əməkdaşlıq mövcuddur. Prezident İlham Əliyev Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso ilə geniş tərkibdə görüşdə söylədiyi kimi, "Səfəriniz gələcək əməkdaşlığımıza da çox müsbət təsir göstərəcəkdir". Əldə edilmiş razılaşmaların icrası nəticəsində ticarət dövriyyəsində müsbət dinamikanın yaranacağına ümid etdiyini bildirən dövlətimizin başçısı deyib: "Bizim siyasi əlaqələrimiz daha da möhkəmlənəcək. Ümid edirəm ki, səfərdən sonra əldə edilmiş razılaşmaların icrası nəticəsində ticarət dövriyyəsində müsbət dinamika yaranacaq. Energetika və kənd təsərrüfatı sektorlarındakı əməkdaşlıq haqqında biz Sizinlə bu gün geniş fikir mübadiləsi aparmışıq və yenə də fikir ayrılığı yoxdur. COP29-la bağlı birgə işləməyə hazırıq və bizə verdiyiniz dəstəyə görə sizə təşəkkürümü bildirirəm".

Səfər çərçivəsində iqtisadi sahədə də əməkdaşlıq haqqında geniş fikir mübadiləsi aparılıb. Azərbaycan Konqoda bir çox investisiya layihələrində iştirak etmək fikrindədir, ilk növbədə, kənd təsərrüfatı sahəsində. "Bərpaolunan enerji sahəsində, energetika sahəsində, mədənçilik və digər sahələrdə əməkdaşlıq üçün çox gözəl perspektivlər var", - deyən dövlətimizin başçısı bildirib ki, bu gün müzakirə aparıldı, müvafiq göstərişlər verildi və əminəm ki, gələcək aylar ərzində bizim nümayəndələrimiz bir-biri ilə sıx təmasda olacaqlar. Karbohidrogen, kənd təsərrüfatı, mədənçilik, informasiya, bərpaolunan enerji sahələrində iki ölkənin mühüm potensialı vardır. Ölkələrimiz arasında qeyd olunan bütün sektorlarda əməkdaşlıq üçün imkanlar vardır.

### "BAKI TƏŞƏBBÜS QRUPU BU GÜN DÜNYA MİQYASINDA BÖYÜK HÖRMƏTƏ MALİK OLAN QURUMDUR"

"Biz bundan sonra da beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək əsasında qarşılıqlı fəaliyyətimizi davam etdirəcəyik, xüsusilə BMT-də və Qoşulmama Hərəkatı çərçivəsində. Qoşulmama Hərəkatına bu ilin yanvar ayına qədər 4 il uğurla sədrlik etmiş Azərbaycan Konqonun dəstəyini hər zaman hiss etmişdir" - deyən Prezident bizim təşəbbüslərimizə Konqonun hər zaman öz dəstəyini verdiyini bildirib: "Bunun nəticəsində sədrliyimiz dövründə Qoşulmama Hərəkatının institusional inkişafı da təmin edilmişdir. Parlament Şəbəkəsi, Gənclər və Qadınlar platformaları məhz sədrliyimiz dönəmində yaradılmışdır. Bu gün Qoşulmama Hərəkatı əvvəlki dövrlərə nisbətən daha güclü təşkilatdır. Bu təşkilatın dünya miqyasında və dünyada gedən proseslərdə oynadığı rolunun artırılması hesab edirəm ki, hamımızın marağındadır. Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci böyük təsisatdır, 121 üzvü var. Biz bu təsisatın, bu hərəkatın gələcək inkişafı ilə bağlı geniş fikir mübadiləsi aparmışıq".

Bildiyimiz kimi Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik dövründə neokolonializmə qarşı mübarizə məsələləri prioritet olaraq qarşıya qoyulmuşdur. Bu Azərbaycan xarici siyasətində mühümyer tutur. "Bir müddət bundan əvvəl Azərbaycanda Bakı Təşəbbüs Qrupu yaradılmışdır. Bu, beynəlxalq qurumdur. Bu qurumun əsas məqsədi kolonializmin, yeni müstəmləkəçiliyin yeni təzahürlərinə qarşı mübarizə aparmaq və bu gün müstəmləkəçilikdən əziyyət çəkən xalqları dəstəkləmək, o xalqların hüquqi əsaslar üzərində azadlığa qovuşmasını təmin etməkdir. Bakı Təşəbbüs Qrupu bu gün dünya miqyasında böyük hörmətə malik olan qurumdur və yenə də deyirəm ki, bu qurumun nəticələri göz qabağındadır" - deyə Prezident bildirib.

### "BİZ ÖZ SİYASİ İRADƏMİZİ ORTAYA QOYMUŞUQ"

Bildiyimiz kimi, Azərbaycanın bu il COP29-a ev sahibliyi edəcək. Azərbaycan COP29-a hazırlıq çərçivəsində məsuliyyətlə addımlar atır. "Azərbaycan COP29-un prezidenti kimi bu tədbirə çox ciddi hazırlaşır və burada Konqo ilə ikitərəfli formatda və çoxtərəfli formatda əməkdaşlıq etmək hesab edirəm ki, məqsədəmüvafiq ola bilər" - deyə Pbildirib.

Səfər çərçivəsində bir sıra məsələlərlə yanaşı, vaxtilə sovet dövründə Konqodan olan tələbələrin Azərbaycanda ali məktəblərdə təhsil almalarına toxunulub. "Biz bu ənənəni bərpa etmək istəyirik və müvafiq göstərişlər verildi" - deyə Prezident bildirib. Cənab Prezident bu səfəri tarixi səfər kimi dəyərləndirib və qeyd edib ki, sadəcə, ilk səfər kimi deyil, məzmun, mahiyyət nöqteyi-nəzərindən də bu səfəri tarixi səfər adlandırmaq olar: "Ölkələrimiz arasındakı əlaqələrdə yeni səhifə açılır. Biz öz siyasi iradəmizi ortaya qoymuşuq və əminəm ki, əldə edilmiş bütün razılaşmalara birgə səylərlə çatacağıq".

**Zümrüd BAYRAMOVA**



## Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen Prezident İlham Əliyevə zəng edib

Aprelin 4-də Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Telefon danışığı əsnasında tərəflər Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın inkişaf perspektivlərini müzakirə ediblər, bu xüsusda, bərpaolunan enerji, nəqliyyat bağlantıları, enerji təhlükəsizliyi və digər əməkdaşlıq sahələri qeyd olunub.

Söhbət zamanı 2022-ci ildə Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanmış enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunun əhəmiyyəti vurğulanıb. Azərbaycanın sədrliyi ilə Bakıda keçiriləcək COP29-un iqlim fəaliyyəti və yaşıl keçid sahəsində əməkdaşlıq üçün əlverişli imkanlar yaratdığı bildirilib.

Avropa Komissiyasının Prezidenti Avropa İttifaqının humanitar minatəmizləmə fəaliyyətində Azərbaycana dəstək göstərməyə hazır olduğunu vurğulayıb. Telefon danışığında aprelin 5-də Brüsseldə keçiriləcək üçtərəfli görüş məsələsi qaldırılıb. Prezident İlham Əliyev ABŞ Dövlət katibi Antoni Blinken ilə müzakirə olunduğu kimi, bu görüşlə bağlı Azərbaycan tərəfinin mövqeyini ifadə edib və regional inklüzivliyin vacibliyini bildirib.

***Mətləb***

# “İnsan hüquqları məsələsinə təkcə lokal deyil, bütövlükdə qlobal kontekstdə baxılması zəruridir"

*Prezidentin Mətbuat Xidməti AZƏRTAC-ın sualını cavablandırıb.*

***Sual: Dünən ABŞ Dövlət katibi Antoni Blinkenlə Prezident İlham Əliyev arasında telefon danışığı ilə əlaqədar ABŞ tərəfindən verilmiş mətbuat açıqlamasında qeyd olunur ki, telefon danışığı zamanı müzakirə edilən məsələlərdən biri də insan hüquqları olmuşdur. Bu barədə nə deyə bilərsiniz?***



Cavab: Bəli, telefon danışığı əsnasında bir çox məsələlərə, o cümlədən bu məsələyə də toxunulmuşdur. Prezident İlham Əliyev tərəfindən bildirilib ki, insan hüquqları məsələsini bəhanə edərək Azərbaycanın daxili işlərinə müdaxilə cəhdləri tamamilə qəbuledilməzdir. Bir sıra Qərb ölkələrinin bu məsələ ilə bağlı ikili standartlara əsaslanan qərəzli açıqlamalarını qəbul etmirik. Bu xüsusda dövlətimizin başçısı Dövlət katibi Antoni Blinkenə Ermənistanda müxalifət nümayəndələrinin həbsi, hətta həbs müddətində ölüm hallarının olması, insan hüquqlarının pozulması hallarını xatırladıb və bu kontekstdə Qərb ölkələrinin səssizliyinin başadüşülən olmadığını, bu kimi faktların məhz ikili standartların bariz nümunəsi olduğunu qeyd edib.

Prezident İlham Əliyev telefon danışığı zamanı, həmçinin tanınmış jurnalist Culian Assancın məhz jurnalist fəaliyyətinə görə uzun müddət fiziki və mənəvi işgəncələrə məruz qalması məsələsini bildirmişdir. Culian Assancın ABŞ-a ekstradisiya edilmək və edam olunmaq məsələsinin müzakirə edildiyini vurğulamışdır. Dövlətimizin başçısı onu da əlavə etmişdir ki, insan hüquqları məsələsinə təkcə lokal deyil, bütövlükdə qlobal kontekstdə baxılması zəruridir.



## Azərbaycan yalnız deyil - Çavuşoğludan Fransaya mesaj

***Başda Fransa olmaqla, bəzi ölkələr Ermənistanı əks istiqamətə yönəldir. SİA xəbər verir ki, bu fikirləri Türkiyə Böyük Millət Məclisinin NATO PA-dakı nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlu Şəhidlər Xiyabanı və Türk Şəhidliyini ziyarəti zamanı jurnalistlərə açıqlamasında deyib.***

”Biz bunu dəfələrlə Fransız nümayəndələrinə demişik. Ermənistanı başqa yolla dəstəkləməyə çalışmasınlar. Unutmasınlar ki, can Azərbaycan heç vaxt yalnız deyil”, - o bildirib. Mövlud Çavuşoğlu bildirib ki, Zəngəzur koridorunun açılması, əlbəttdə ki, hər kəsə faydası olacaq. Çavuşoğlu bildirib ki, koridorun açılması həm bölgə üçün, eləcə də Ermənistanın özü üçün ciddi fayda vəd edir: ”Bu mənada biz Zəngəzur koridorunun açılmasını dəstəkləyirik”.

# COP29: iqlim dəyişikliyinə yeni yanaşmalar

Prezident İlham Əliyev: "Yaşıl enerjinin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir"

***Azərbaycan beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizədə fəal mövqe göstərir. Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri ”Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.***

Azərbaycan 1990-cı il ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürmüşdür. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan olunmuşdur. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir. Həmin ərazilərdə ”ağıllı şəhər”, ”ağıllı kənd” kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının göstəricisidir. Bu, tədbir Qoşulmama Hərəkatına sədrliyimiz və Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük uğurudur. Eyni zamanda, son zamanlar Azərbaycana qarşı çirkin kampaniya aparan bəzi dairələrə tutarlı cavab oldu. COP29-un Azərbaycanda keçirilməsi 2024-cü ilin ən mühüm hadisəsi və ölkənin yaşıl iqtisadiyyata keçid strategiyasının təzahürüdür.




### ”BİZİM GÜNDƏLİYİMİZ YAŞIL ENERJİ İLƏ BAĞLIDIR”

Vurğulayaq ki, COP29-u ən yüksək səviyyədə keçirilməsi məqsədi ilə hazırlıq işlərinin layiqincə aparılması üçün dövlət başçısının məlum Sərəncamı ilə Təşkilat Komitəsi yaradılıb. Bu tədbir böyük mahiyyətə daşıyır. Belə ki, COP29 iqlim dəyişikliyinə yeni yanaşmalar yaradacaq və müxtəlif maraqlı tərəflər arasında əməkdaşlığı təşviq edəcəkdir.

Əlbəttə ki, yaşıl enerjinin inkişafı və yaşıl enerjinin dünya bazarlarına çıxışı hazırda Azərbaycanın enerji siyasətinin prioritetidir.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Azərbaycanda keçirilməsi ölkəmizə növbəti dəfə böyük etimad və böyük hörmətin nümayişidir. Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a 2024-cü ildə ev sahibliyi etməsi Prezident İlham Əliyevin növbəti təntənəli qələbəsidir.

COP29-a ev sahibliyi etmək qərarı Bakının iqlim dəyişikliyi ilə mübarizəyə sadiqliyidir. Prezident İlham Əliyevin 2024-cü ili ”Yaşıl dünya naminə həmrəylik ili” elan etməsi Azərbaycanın davamlı inkişaf istiqamətindəki qlobal səylərin önündə olma sadiqliyini nümayiş etdirən strateji addımdır.

Azərbaycan Prezidenti İlham Əliyevin nümayiş etdirdiyi güclü siyasi iradə və Şərqi Avropa Qrupunun üzvü olan dövlətlərin Azərbaycanın COP29-a ev sahibliyi etmək üçün ölkəmizin namizədliyini dəstəkləməsi uğurumuzda mühüm əhəmiyyət kəsb edir. ”Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz yaşıl enerji ilə bağlıdır. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək”, - deyə Prezident çıxışlarının birində bildirib. Azərbaycan Respublikasının Prezidenti ölkəmizin işğaldan azad edilmiş torpaqlarını ”Yaşıl enerji” zonası elan edib. Bu ərazilərin 2050-ci ilədək ”Netto sıfır emissiya” zonasına çevrilməsi nəzərdə tutulur.

### ALTERNATİV ENERJİ MƏNBƏLƏRİNƏ UĞURLU KEÇİD NÜMUNƏSİ

Azərbaycanın enerji keçidinə kompleks yanaşması iqtisadi artımın və elektrik enerjisinə artan tələbatın səbəb olduğu dəyişən enerji mənzərəsində özünü göstərir. Mütəxəssislərin qənaətinə görə, ölkənin dayanıqlı enerjiyə diqqəti yaşıl enerjini təşviq edən və istixana qazı emissiyalarını azaldan xarici siyasət təşəbbüsləri sayəsində beynəlxalq miqyasda yayılır. Azərbaycan alternativ enerji mənbələrinə uğurlu keçid nümunəsidir və yaşıl enerjiyə keçidə yönəlmiş innovativ yanaşmaların tətbiqi üzrə regionda liderdir, iqlim dəyişikliyinin nəticələrinə qarşı mübarizəyə ciddi töhfə verir. ”İqlim dəyişikliyi ilə bağlı bu qlobal tədbirə ev sahibliyi etmək istəyimizin olması bizim iradəmizi nümayiş etdirir” - deyən Prezident İlham Əliyev bildirib ki, bizim tədbirə ev sahibliyi etmək və bu işə töhfə vermək istəyimiz yaşıl gündəliyimizi nümayiş etdirir.

Bildirək ki. SOP28 ötən il Dubayda keçirildi, bu il isə dünyanın gözü COP29-a ev sahibliyi edəcək Bakıda olacaqdır. Bütün dünya ölkələrinin dövlət rəhbərləri bir araya gəlib iqlim dəyişikliyi ilə bağlı məhz Bakıda həll yolları axtaracaqlar. Bu ölkəmiz üçün, onun enerjisi, geosiyasəti üçün son dərəcə vacib bir toplantı kimi əhəmiyyət daşıyacaqdır.

***Zümrüd BAYRAMOVA***

# NATO sammitindən nə gözlənilir?

*Şimali Atlantika Alyansı Ukraynaya üzvlüyə dəvət əvəzinə nə verilə bilər?*

Brüsseldə alyansın 75-ci ildönümünə həsr olunmuş NATO xarici işlər nazirlərinin ikigünlük iclası açılıb. Gündəlikdə iki əsas məsələ var: Ukraynaya dəstək və blokun yeni baş katibinin namizədliyi. Ukraynanın gözləntilərinin əksinə olaraq, o, yaxın gələcəkdə alyansa qoşulmağa dəvət edilməyəcək, lakin onun üzvləri Kiyevə uzunmüddətli hərbi dəstək verməyi öhdələrinə götürə bilərlər. Bu məqsədlər üçün 100 milyard dollarlıq 5 illik töhfə fondu yaradıla bilər. Bundan əlavə, NATO Ukraynaya silah tədarükü və ordusunun təlimi üzrə koordinator rolunu öz üzərinə götürə bilər. Rusiya hakimiyyəti NATO-nun yaradılmasının ildönümünü şərh edərək, alyansı "sabit, uzunmüddətli təhlükə, böhran və münaqişələr mənbəyi", eləcə də "kollektiv Qərbin ibtidai aləti" adlandırıb.



### Daha möhkəm baza

Cümə axşamı Brüssel Şimali Atlantika Alyansının yaradılması haqqında Vaşinqton müqaviləsinin imzalanmasının 75-ci ildönümünü (4 aprel 1949-cu il) qeyd edəcək. Bu münasibətlə çərşənbə günü bloka üzv ölkələrin xarici işlər nazirliklərinin rəhbərləri NATO-nun mənzil-qərargahına toplaşıblar. Cümə axşamı onlar yubileyi qeyd etmək üçün mərasimdə iştirak edəcəklər. Çərşənbə günü 32 alyans ölkəsinin xarici əlaqələr idarələrinin rəhbərləri blokun qarşıdan gələn sammitindən əvvəl həll etmək istədikləri praktiki məsələləri bağlı qapılar arxasında müzakirə ediblər. NATO-ya üzv ölkələrin dövlət və hökumət başçılarının görüşü iyulun 10-11-də Vaşinqtonda keçiriləcək və alyansın yubiley ilinin kulminasiya nöqtəsi olacaq.

Birinci sual Ukraynanın NATO-ya daxil olması və ona hərbi dəstək verilməsi perspektivləri ilə bağlıdır. Bundan əvvəl Ukrayna rəsmiləri 2022-ci ilin sentyabrında NATO-ya "sürətləndirilmiş üzvlük" üçün ərizə təqdim edən Ukraynanın paytaxtı Vaşinqtonda keçiriləcək sammitdə alyansa üzv olmağa rəsmən dəvət ediləcəyinə ümid etdiyini bildirib. Amma blok nümayəndələrinin bütün son bəyanatlarına əsasən, bu baş verməyəcək. NATO-nun baş katibi Yens Stoltenberq çərşənbə günü Kiyevi sakitləşdirməyə çalışaraq, "Ukrayna NATO-ya üzv olacaq" və ""əgər" məsələsi yoxdur, sadəcə "nə vaxt" olacaq" deyib. Lakin o, bununla bağlı konkret heç nə deməyib. ABŞ dövlət katibi Antoni Blinkenin sözlərinə görə, blokun üzvləri Ukraynanın alyansa inteqrasiyası üçün "yol xəritəsi" hazırlamaq niyyətindədirlər. Amma onun nə olacağı və nə vaxt təqdim ediləcəyi hələlik bəlli deyil.

Çərşənbə günü NATO-ya üzv ölkələrin Kiyevə Qərb silah və avadanlıqlarının tədarükündə artıq müşahidə olunan fasilələr, habelə Kiyevdə mümkün hakimiyyət dəyişikliyi fonunda Ukraynaya hərbi dəstəyi necə davam etdirməyi planlaşdırdığı sualına Birləşmiş Ştatlar bir az daha aydınlıq gətirib. Döyüş meydanındakı vəziyyəti Ukrayna üçün "çətin" adlandıran və Rusiyanın "irəlilədiyini" bildirən Yens Stoltenberq Kiyevə tədarük formatının dəyişdirilməsinin, yardımın daha möhkəm əsaslara qoyulmasının vacibliyini bildirib. "Biz dəstəyimizin dinamikasını dəyişməliyik. Biz müharibə boyu Ukraynaya etibarlı və proqnozlaşdırıla bilən yardım göstərməliyik. Biz könüllü töhfələrə və qısamüddətli yardıma daha az, daha çox NATO daxilində çoxillik öhdəliklərə etibar etməliyik", - Yens Stoltenberq alyansın baş qərargahında keçirdiyi brifinqdə bildirib. Onun sözlərinə görə, bu, NATO-ya Moskvaya "sadəcə alyansı gözləyə bilməyəcək" və "müharibədə qalib gələ bilməyəcək" siqnalı göndərməyə imkan verəcək.



Ukraynaya dəstək formatının aşağıdakı kimi dəyişdirilməsi təklif edilir. Birincisi, alyans Ukrayna üzrə təmas qrupunun koordinatoru rolunu öz üzərinə götürməlidir (50-yə yaxın ölkəni birləşdirən bu mexanizmin əksər iclaslarının keçirildiyi Almaniyadakı Amerika hərbi bazasından sonra Ramşteyn formatı kimi tanınır). İndi ilk növbədə Ukraynaya silah tədarükü və ukraynalı hərbçilərin hazırlanması ilə məşğul olan bu qrupa ABŞ rəhbərlik edir. Amma Avropada qorxurlar ki, keçmiş prezident Donald Tramp noyabrda ABŞ-da keçiriləcək seçkilərdə qalib gəlsə, Vaşinqton bu formatdan imtina edəcək və buna görə də formal olaraq onu NATO "çətiri" altına salmaq istəyirlər.

Alyans əvvəllər təmas qrupunun üzvü idi, lakin onun rəsmiləri həmişə vurğulayırlar ki, o, öz səylərini əlaqələndirmir, yalnız ayrı-ayrı üzv ölkələr və tərəfdaşlarla birlikdə onlarda iştirak edir. Tezliklə qrupun rəsmi olaraq NATO-nun himayəsi altında fəaliyyət göstərəcəyi gözlənilir. Eyni zamanda, Yens Stoltenberq bu dəyişikliklərin onun əməliyyat işinə az da olsa təsir edəcəyini vurğulayıb. "Əslində buna eyni adamlar rəhbərlik edəcək. Bu, NATO-nun Avropadakı Birləşmiş Silahlı Qüvvələrinin Ali Baş Komandanıdır, general (Kristofer - Kommersant) Kavoli amerikalı generaldır, lakin eyni zamanda NATO-nun komandanıdır", - alyansın baş katibi izah edib. Yens Stoltenberqin sözlərinə görə, bu dəyişikliklər həm də "alyansı münaqişə tərəfinə çevirməyəcək".



İkincisi, Ukraynaya dəstək üçün NATO-nun 100 milyard dollarlıq xüsusi fondu yaradıla bilər. Beş il davam edəcəyi gözlənilir. Blokun bütün 32 üzvü üçün töhfələr məcburi olmalıdır. NATO üzvü olan ölkələrin xarici işlər nazirlərinin ictimai şərhlərinə əsasən, onların bu təşəbbüslə bağlı hələ də çoxlu sualları var. Beləliklə, töhfələrin bölüşdürülməsi mexanizmi hələ də aydın deyil. Həmçinin, fondun formalaşdırılması zamanı blokun ayrı-ayrı üzv ölkələrinin Ukraynaya əvvəllər göstərdiyi hərbi yardımın həcminin, eləcə də gələcək tədarüklərlə bağlı bununla bağlı mövcud ikitərəfli razılaşmaların nəzərə alınıb-alınmayacağına dair qərar verilməyib. Sonuncu xüsusilə Kiyevi narahat edir. Ukraynanın xarici işlər naziri Dmitri Kuleba Reuters agentliyinə müsahibəsində bildirib ki, Ukrayna tərəfi fond ideyasını alqışlayır, lakin ümid edir ki, söhbət əvvəlki öhdəliklərin yenidən bölüşdürülməsindən deyil, yeni öhdəliklərdən gedir. "Əgər bu təşəbbüs reallaşarsa, bunun yeni 100 milyard olacağına əmin olmalıyıq" dedi.

NATO bu iki yeniliklə bağlı yaranan bütün məsələləri (əlaqə qrupu və fond) iyul ayına kimi həll etməyə ümid edir. Hələlik bu sazişlər ilkin statusa malikdir və digər məsələlərlə yanaşı, bəzi üzv ölkələrin rəsmilərinin skeptik şərhləri ilə müşayiət olunur. Belə ki, Macarıstanın xarici işlər naziri Peter Siyarto çərşənbə günü jurnalistlərlə söhbətində Ukraynanı NATO-ya dəvət edə bilməməsinə görə alyansın hərbi dəstəyin təmin edilməsində əlaqələndirici rolunun artırılması tədbirləri ilə kompensasiya edilməsi ideyasını tənqid edib. "Bu, çox təhlükəli və çox bahalı əvəzetmədir. Biz qorxuruq ki, bu təkliflər NATO üçün müharibəni daha da yaxınlaşdıracaq və hərbi əməliyyatlar əvvəlkindən də çox artacaq".

Bununla belə, qeyd etmək lazımdır ki, əvvəllər Macarıstan dəfələrlə açıq şəkildə NATO-nun müəyyən təşəbbüslərinə qarşı çıxmışdı, lakin sonda yenə də onlarla razılaşdı. Görünür, Brüssel bu dəfə də belə olacağını gözləyir. "Macarıstanın xarici işlər naziri Siyarto ilə yaxşı dialoqum var; keçən həftə Macarıstanın baş naziri Viktor Orbanla iki dəfə danışdım. Əminəm ki, biz Macarıstanın ifadə etdiyi narahatlıqları nəzərə alıb, qarşıdakı həftələrdə konsensusa gedən yol tapa biləcəyik", - Yens Stoltenberq çərşənbə günü deyib. Cümə axşamı alyansın mənzil-qərargahında NATO-Ukrayna Şurasının iclası da keçiriləcək.

"Qeyd etməyə heç nə yoxdur"

Bu arada, çərşənbə günü Peter Siyarto NATO-nun baş katibi postuna əsas namizəd, Hollandiyanın baş naziri Mark Rutteni də tənqid edib. Xatırladaq ki, 2014-cü ildən indiki vəzifəsini tutan norveçli Yens Stoltenberq 2022-ci ildə postunu tərk etməli idi, lakin onun mandatı bir neçə dəfə uzadılıb. Hazırda 1 oktyabr 2024-cü il tarixinə qədər etibarlıdır və daha da uzadılması gözlənilmir. Uzun illər davam edən müzakirələrdən sonra NATO-ya üzv ölkələrin əksəriyyəti (medianın məlumatına görə, 32 ölkədən 28-i) Mark Ruttenin namizədliyini dəstəkləməyə hazır olduqlarını bildiriblər. Macarıstan hələ onların arasında deyil. O, baş katib postunun nəhayət Mərkəzi Avropadan olan bir şəxsə keçməsində israr edir və Rumıniya prezidenti Klaus İohannisin namizədliyini dəstəkləyir. Çərşənbə günü Peter Siy?rto Mark Ruttenin Macarıstanı daha əvvəl sərt tənqid etdiyini xatırladaraq, "Yalnız bütün müttəfiqlərin dəstəyini alan şəxs Şimali Atlantika Alyansına rəhbərlik edə bilər, bunu Hollandiyanın baş naziri haqqında söyləmək olmaz" deyib.

Polşa, Slovakiya və Türkiyə hakimiyyəti də Mark Ruttenin namizədliyini dəstəkləməyə hazır deyil. Bu məsələ ilə bağlı qərarın NATO-nun yubiley sammitində də veriləcəyi gözlənilir. Bu arada, Moskva üçün alyansın baş katibinin dəyişməsi ilə əsaslı şəkildə nəyinsə dəyişəcəyi ehtimalı azdır. Rusiya hakimiyyəti bu həftə NATO-nun Vaşinqton Müqaviləsinin imzalanmasının 75-ci ildönümünü fəal şəkildə şərh edərək, açıq şəkildə bildirdi: alyans "sabit, uzunmüddətli təhlükə, böhran və münaqişələr mənbəyi" olub və belə də qalır. Bu barədə xüsusilə Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev "Arqumentı i faktı" qəzetinə müsahibəsində bildirib. Onun sözlərinə görə, Şimali Atlantika Alyansı faktiki olaraq artıq Ukrayna münaqişəsinin tərəfidir. "Onun çərçivəsində texniki və uzaqmənzilli imkanlarının artırılması ilə yeni silah tədarükü ilə bağlı kollektiv qərarlar qəbul edilir və bir sıra ölkələrdə NATO təlimatçıları muzdlu və diversantlara anti-Rusiya əməliyyatlarında iştirak etmək üçün təlimlər keçirirlər", - Nikolay Patruşev bildirib. ABŞ və NATO-nun planları, onun şərhlərindən belə çıxır ki, "Ukraynanın və ya ən azı bir hissəsinin tamamilə onların nəzarəti altında olan, tamamilə Şimali Atlantikanın maraqlarına xidmət etməyə həsr olunmuş anti-Rusiya ərazisi kimi qorunub saxlanılmasını ehtiva edir".

### 75 il ərzində ittifaq necə böyüdü?

Öz növbəsində, Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova çərşənbə günü bildirib ki, "yubiley tarixinə baxmayaraq", NATO-nun "qeyd edəcək heç bir şeyi yoxdur". "Yəqin ki, NATO üzvləri bayram etməyi planlaşdırıblar, amma mənim fikrimcə, bu, vacib şeylər üçün - ümumavropa əməkdaşlığı, təhlükəsizliyin bölünməzliyi, ümumi çağırış və təhdidlərə qarşı mübarizə üçün rekviyem oldu. İttifaqın tarixi öz şübhələri ilə "qızıl milyard"ın firavanlığı naminə bir çox xalqlara müharibə və dağıntı gətirən aqressiv macəralarla doludur.

**V.VƏLİYEV**

# Dünya enerjiyə qənaət rejiminə keçir

**Bu gün ən əsas ehtiyaclardan birinə çevrilən enerji bu sürətlə istehlak edilməyə davam edərsə, yaxın gələcəkdə resursların tükənməsi, hətta istehsal olunmaması ilə nəticələnə bilər. Bu səbəbdən enerji ehtiyatlarını qorumaq və istehlakda pula qənaət etmək vacibdir. Enerjidə kiçik tədbirlər böyük qənaət təmin edir. Bu gün qazandığımız hər bir qənaət gələcəyimizə töhfə verəcək. Uşaqlara gözəl gələcək qurmaq üçün enerji və enerji resursları israf edilməməlidir.**

Enerji səmərəliliyi, məhsul və xidmətlərin təmin edilməsi üçün tələb olunan enerji miqdarının azaldılması deməkdir. Məsələn, bir evin düzgün izolyasiyası, binanın ideal temperatura nail olmaq və saxlamaq üçün daha az istilik və soyutma enerjisi istifadə etməsinə imkan verir. Led işıqlandırmadan istifadə, ənənəvi közərmə üsulu lampalarından istifadə ilə müqayisədə, eyni işıqlandırma səviyyəsinə nail olmaq üçün tələb olunan enerji miqdarını azaldır. Enerji səmərəliliyinin yaxşılaşdırılması çox vaxt, daha səmərəli texnologiya və ya istehsal prosesinin qəbul edilməsi, həmçinin enerji itkilərini azaltmaq üçün ümumi qəbul edilmiş metodların tətbiqi ilə əldə edilir.

Enerjidən istifadənin azaldılması enerji xərclərini azaldır. İstehlakçılar enerjiyə qənaət edən texnologiyanın tətbiqi ilə maliyyə xərclərinə qənaət edə bilər. Enerji istifadəsinin azaldılması həm də istixana qazlarının emissiyalarının azaldılması deməkdir. Beynəlxalq Enerji Agentliyinin hesablamalarına görə, binalarda, sənaye proseslərində və nəqliyyatda enerji səmərəliliyinin yüksəldilməsi 2050-ci ilədək dünyanın enerji ehtiyaclarını üçdə bir nisbətədək azalda bilər və qlobal istixana qazları emissiyalarına nəzarət etməyə böyük dərəcədə kömək edə bilər.







Enerji səmərəliliyinin faydalarına, iqlim dəyişikliyinin təsirinin azaldılması, havanın çirklənməsinin azaldılması və oksigenin keyfiyyətinin yaxşılaşdırılması, enerji təhlükəsizliyinin yüksəldilməsi və enerji istehlakçıları üçün azaldılmış qiymət faktorları da daxildir. Enerji səmərəliliyini artırmaq üçün bir çox üsullar var.

Dondurucular, sobalar, qabyuyan və paltaryuyan maşınların müasir modelləri köhnə cihazlardan olduqca az enerji sərf edir. Paltarları paltarqurutma maşınında deyil, ipdə, günəşin altında qurutmaq enerji sərfiyyatını əhəmiyyətli dərəcədə azaldır. Mövcud enerjiyə qənaət edən soyuducular, məsələn, 2000-ci illərdəki modellərdən 40 faiz az enerji sərf edir. Beynəlxalq Enerji Agentliyinin hesablamalarına görə, Avropadakı bütün ev təsərrüfatları on ildən artıq köhnəlmiş cihazlarını yeniləri ilə əvəz etsəydilər, hər il 20 milyard kVt/saat elektrik enerjisinə qənaət edilərək $CO_2$ emissiyalarını təxminən 18 milyard kq azaltmaq olardı. ABŞ-da müvafiq rəqəmlər 17 milyard kVt/saat elektrik enerjisi və 27 milyard kq $CO_2$ olacaq.



Aparılmış araşdırmaya görə, köhnə cihazların dəyişdirilməsi istixana qazı emissiyalarını azaltmaq üçün ən təsirli qlobal tədbirlərdən biridir. Müasir enerji idarəetmə sistemləri həmçinin müəyyən müddətdən sonra boş qalan cihazları söndürməklə və ya aşağı enerji rejiminə keçirməklə enerji istehlakını azaldır. Məsələn, televizora baxmadıqda onu pultdan söndürmək yerinə naqili enerjidən ayırmaq lazımdır. Əgər telefon enerjiyə qoşulmayıbsa enerji cihazını daim naqildə saxlamaq da enerji israfıdır. Enerji səmərəliliyinin pik tələbata təsiri, cihazın nə vaxt istifadə olunduğundan asılıdır. Məsələn, günorta hava çox isti olanda kondisioner daha çox enerji sərf edir. Buna görə də, enerjiyə qənaət edən kondisioner daha sərfəli olacaq.

Bina inşası bütün dünyada enerji səmərəliliyinin artırılması üçün mühüm sahədir, çünki onlar enerjinin böyük istehlakçılarıdır. Binalarda enerji istifadəsi problemi sadə problem deyil, bəlkə də ən çox israf edilən istiqamətdir. Binalardakı ümumi işıqlandırma, istilik, soyutma və ventilyasiya, lift xidməti - hamısı enerji istehlak edir. Ümumi blokların işıqlandırılma sistemi sensor üsulu hərəkətə əsaslanan tipli olsa enerjiyə əhəmiyyətli dərəcədə qənaət edilə bilər. Binaların damına qoyulmuş günəş panelləri ilə də binaların enerji istehlakına qənaət etmək olar.

Binanın yeri və ətrafı, onun temperaturunun və işıqlandırılmasının təbii yolla tənzimlənməsində mühüm rol oynayır. Məsələn, ağaclar, parklar binanın məruz qalacağı küləyin qarşısını ala, bununla da istiliyin mühavizəsi tənzimlənə bilər. Daha soyuq iqlimlərdə binalarının cənuba baxan pəncərə ilə layihələndirilməsi, passiv günəş istiliyini maksimum dərəcədə artırmaqla binaya daxil olan günəşin miqdarını artırır. Binanın dizaynı, o cümlədən enerjiyə qənaət edən pəncərələr, yaxşı izolyasiya edilmiş qapı və divarlar, döşəmə və tavanın əlavə izolyasiyası istilik itkisini 25-50 faiz azalda bilər.

Tünd rəngli dam örtükləri ağ rəngə boyanmış damlardan 39 °C-ə qədər daha istilik mühavizə edə bilir. Bu damlar istiliyin bir hissəsini binaya ötürürlər. ABŞ-da aparılan tədqiqatlar isə açıq rəngli dam örtüklərinin tünd rəngli dam örtüklərinə nisbətən soyutma üçün 40 faiz daha az enerji sərf etdiyini göstərib. İsti iqlimlərdə ağ dam örtükləri, soyuq iqlimlərdə isə tünd rəngli dam örtükləri enerjiyə qənaət üçün vasitə ola bilər.



Dünyadakı şəhərlərdə milyonlarla küçəni milyonlarla işıq lampaları işıqlandırır. İndi bəzi şəhərlər qeyri-pik saatlarda işıqları zəifləmtəklə və ya led işıqlarına keçməklə küçə işığının enerji istehlakını azaltmağa çalışır. Qeyd edək ki, led lampaların enerji istehlakını 50-80%-ə qədər azaltdığı bildirilir. Enerji sərfiyyatını, dolayısı ilə xərclərimizi azaltmaq üçün enerjidən istehlakı minimuma endirməli,

beləcə gələcək nəsillər üçün daha təminatlı bir gələcək qura bilərik.

***Lalə Mehralı***

# Fitrə zəkatını necə verməli: pulla, yoxsa ərzaqla?

***Artıq Ramazan ayının bitməsinə az qalıb. Şəvval ayının 1-də, yəni aprelin 10-da Azərbaycanda Ramazan (Fitr) bayramı qeyd olunacaq. Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, ölkədə iki gün - aprelin 10-da və 11-də bayram günləridir.Hər kəsə məlumdur ki, Ramazan ayının vacib əməllərindən biri də fitrə sədəqəsidir. Bəs, görəsən fitrənin nə demək olduğunu bilirik? Fitrə necə və kim tərəfindən çıxarıla bilər? SİA mövzu ilə bağlı araşdırma aparıb.***



## Fitrə nədir?

İlk növbədə fitrə sözünün mənasını araşdırdıq. Məlum oldu ki, "Fitr" kəlməsi "orucu açmaq" "orucu başa vurmaq" mənasına gəlir. Fitr sədəqəsi isə insanı ramazan ayına çatdıran, ramazanı yaşadan və bu ayın bərəkətindən faydalandıran Allaha şükür niyyəti ilə verilən sədəqədir.

Bu kəlmə dilimizdə keçmiş dövrdən bəri "fitrə" şəklində işlədilir ki, o da ərəb dilindəki "fitra" sözündən gəlib, "yaradılış", "fitrət" deməkdir. Bu mənada fitrə, yəni fitr sədəqəsi Allahın bizləri kainatda ən uca varlıq (insan) kimi yaratmasının müqabilində edilən təşəkkürün bir ifadəsidir.

İstilahi mənada, termin olaraq "fitrə" Ramazan ayının sonunda nisab miqdarı mala malik müsəlmanların verməklə mükəlləf olduqları vacib sədəqədir.

Fitrə Peyğəmbərimizin (s.ə.s.) Mədinəyə hicrətindən iki il sonra orucla birgə fərz (və ya vacib) buyurulmuş ibadətdir.

## Fitrənin faydaları

İbn Abbas fitrə haqqında nəql edir: "Rəsulullah fitr zəkatını (fitrəni) oruclunu faydasız söz və davranışlardan, çirkin və yersiz söhbətlərdən (çirkabından) təmizləyən, kasıblara da yeyəcək olan bir ibadət kimi fərz buyurdu"





ARAŞDIRMA



Buna əsaslanaraq fitrəni həm fərdi, həm də ictimai faydaları baxımından nəzərdən keçirmək olar. Belə ki, oruc tutan şəxs ramazan günlərində özünə və üstəlik orucluya yaraşmayan davranışlara yol verə, sözlər danışa, xəyalından pis şeylər keçirə bilər. Bunlar da tuttuğumuz oruc ibadətinə xələl gətirən xətalardır. Məhz bu baxımdan fitrə ramazanda yol verilən xətaların bir kəffarəsi olaraq tutulan orucu kamala çatdırır. Hətta bəzi alimlər fitrəni namazın səhv səcdəsinə bənzətmişlər. Bildiyimiz kimi, səhv səcdəsi namazda bilmədən yol verilmiş qüsuru düzəltmək üçün edilir.

Fitrə xüsusən, bayram günlərində kasıb insanların süfrəsindən tutmuş geyim-keciminə qədər sosyal həyatın bütün sahələrinə təsir edir ki, bu da onun ictimai faydasıdır. Beləliklə, fitrə varlı ilə yoxsulun bir-birinə qaynayıb-qarışmasına, onlar arasındakı uçurumun müəyyən qədər aradan qalxmasına səbəb olur. Varlı kasıba sevgi ilə, kasıb da varlıya hörmət və ehtiramla baxmağa başlayır. Qısqanclıq hisləri korşalır, qəlblər yumşalır, yardımlaşma duyğusu iliklərədək hiss edilir. Fitrə, bəlkə də, buna görə olduqca az miqdarda müəyyən edilmiş, verilməsi asanlaşdırılmış və beləcə daha çox insanın bu əməli işləyib bu hissi yaşamasına zəmin hazırlanmışdır.

## Fitrənin hökmü

Bir çox hədislərdə işlənən "əmərə", yəni "əmr etd"[3] ifadəsini əldə rəhbər tutan İmam Şafei, İmam Malik və İbn Hənbəl fitrə ilə bağlı fərz hökmünü vermişlər. Hənəfi məzhəbinə görə, fitrə vacibdir.[4] Ancaq qeyd edək ki, Hənəfilərə görə, fərzlə vacib arasında əməli və tətbiqi baxımından heç bir fərq yoxdur. Sadəcə etiqadi baxımdan fərq var. Belə ki, Hənəfi məzhəbində vacib hökmü zənni bir dəlilə söykəndiyinə görə bunu inkar edən kafir olmur. Halbuki, fərzi inkar edən kafir olur və dindən çıxır.

*Ardı Səh. 7*



# Fitrə zəkatını necə verməli: pulla, yoxsa ərzaqla?




Əvvəli Səh. 6

### Fitrə nə vaxt verilir?

Fitrə sədəqəsinin vacib olduğu vaxt Fitr bayramının birinci günüdür, lakin bayramdan əvvəl də verilə bilər. Bu daha da fəzilətlidir. Ancaq bayram günü və ya daha sonra da verilə bilər. Lakin bayram namazından əvvəl vermək müstəhəb sayılır.

Şafii məzhəbinə görə, bayramın birinci günü günəş batandan sonra fitrə vermək düzgün deyil. Üzrlü səbəblər istisnadır. Ramazanın ilk günlərində də fitrə vermək olar.

Bu ayda insanlar təkcə mədələrini oruc etmirlər, həm də nəfislərinə qadağalar qoyurlar. Orucluğun bir fəlsəfəsi də odur ki, insanlar ən azından ildə bir ay qazandıqlarını gizlətməməlidirlər. Bu bir ayda qazandıqlarının müəyyən hissəsini kasıblarla bölüşməlidirlər. Fitrə vermək hər bir oruc tutana yox, hər bir imkanlıya vacibdir.

### Bəs, kimlər imkanlı sayılır?

Bu sualın cavabını tapmaq o qədər də çətin deyil. Çünki, bütün dövlətlərdə olduğu kimi bizdə də yoxsulluğu müəyyən edən meyarlar var. Məsələn, Azərbaycan dövləti 2023-cü il üçün yaşayış minimumu və ehtiyac meyarını 246 manat müəyyən edib. Bu o deməkdir ki, minimum ehtiyacları ödəmək üçün ailənin hər bir üzvünün ən azı bu qədər aylıq gəliri olmalıdır.

Əgər ailə üzvlərinin fərdi gəlirləri bundan aşağıdırsa, onda həmin ailə yoxsul sayılır və bu şəxslər dövlətdən əlavə yardım almaq hüququna malikdirlər. Bu minvalla 4 nəfər ailənin aylıq gəliri 1000 manata çatmırsa, demə o imkansız sayılır. Bu adamların fitrə verməsi vacib deyil.

Hənəfilərə görə aşağıda sadalananlara fitrə verilmir:

a) Valideynlərə, babalara və nənələrə,

b) Oğul, oğul uşaqları, qız, qız uşaqları və onlardan doğulan uşaqlar;

c) arvadına,

d) Zəngin, yəni əsas ehtiyaclarından başqa nisab miqdarında mal sahibi olan şəxs;

e) Yeniyetmə olmamış, atası zəngin olan uşaq

Şafiilərə və Əbu Yusifə görə, müsəlman olmayana fitrə verilə bilməz.

### Bəs haqqında danışdığımız fitrə necə müəyyən edilir?

Fitrənin məqsədi, yaşadığı cəmiyyətin həyat səviyyəsinə uyğun olaraq bir kasıbın gündəlik yeməyini qarşılamaq, bununla da onun bayram sevincində iştirakına töhfə verməkdir.






Bu gün fitrə sədəqəsinin miqdarının müəyyən edilməsində insanın bir günlük (iki dəfə yemək) normal qida ehtiyacını ödəyəcək miqdarın ölçülməsi daha məqsədəuyğundur.

İnsan dini cəhətdən zəngin olanlara, oğluna (ana, ata, baba və nənə), övladlarına (övladlarına və nəvələrinə) və həyat yoldaşına fitrə sədəqə verə bilməz. Fitrə bir kasıba verilə və ya bir neçə kasıba paylana bilər.

Fitrə barədə ətraflı məlumat almaq üçün Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Hacı Fuad Nurullayevə müraciət etdik. O bildirib ki, şəriət baxımından dinimizdə fitrə zəkatı buğda, un və s. kimi minimum ərzaqdan hesablanır: "Amma insanlar fitrə zəkatı kimi orta səviyyədə ərzaq çıxarsa, daha yaxşı olar. Fitrə zəkatı yoxsullara, möhtac olan insanlara verilir ki, onlara verilən pulla öz ehtiyaclarını ödəsinlər. Bugünkü gündə ölkəmizdə imkansız ailələr az deyil. Qazilər, şəhid ailələri, qonşuluqda və ya qohum-əqrəbada elə kasıb adamlar var ki, onları mütləq nəzərə almaq lazımdır. Fitrə zəkatı bu cür insanlara verilməlidir. Bayram günü qapı-qapı dolaşıb dilənçilik edənlərə fitrə zəkatı vermək olmaz. Qafqaz Müsəlmanları İdarəsi olaraq hər il tövsiyə edirik ki, yaşından, oruc tutub-tutmamasından asılı olmayaraq ailədəki hər bir insan üçün fitrə zəkatı çıxarılsın. Bu, ailə başçısının boynuna bir haqq, dini əmrdir və icra olunmalıdır. fitrə zəkatı minimum 10-15 manat çıxarıla bilər. Əgər ailənin imkanı yoxdursa, amma fitrə zəkatı çıxarmaq istəyirsə, eybi yoxdur gücü çatan qədər çıxara bilər. Amma ümumiyyətlə, ailəsini çətinliklə dolandıran, əlində olan maddi imkan ilə ailəsinin son təminatlarını edən insanlar fitrə zəkatı çıxarmazlar. Yəni, onların boynunda haqq yoxdur".

### Bir kəs fitrə zəkatını bayram namazından əvvəl çıxartmağı unudubsa nə etməlidir?

Fitrə zəkatını namazdan əvvəl çıxartmaq vacibdir. Kim ki, unudarsa onun borcu yalnız fitrəni çıxartmaqdır. Çünki bu fərzdir və bunu yadına düşən zaman çıxartmalıdır. Buna baxmayaraq fitrəni namazdan sonraya saxlamaq olmaz. Çünki Peyğəmbər (s.ə.s) fitrəni namazdan öncə çıxarmağı müsəlmanlara əmr edib.

### Fitrə zəkatı nə vaxt çıxarılır?

Fitrə zəkatı bayram namazına çıxmazdan əvvəl çıxarılır. Amma bunu bayram namazından iki gün əvvəl də etmək olar. Yəni 28-ci gecədən başlayaraq fitrə zəkatını çıxartmaq olar.

Nəticə etibarilə, fitrə müsəlmanların yerinə yetirməyə borclu olduğu bir ibadətdir. Və elə bir ibadətdir ki, yerinə yetirməsələr, axirətdə hesabını verməli olacaqlar.

***Ləman Sərraf***

# Azərbaycana qarşı ədalətsizlik və NÖVBƏTİ SİMASIZLIQ

Ölkəmizə qarşı ədalətsiz, haqsız yanaşmaya, ikili standartların bizə qarşı tətbiqinə, elə məhz bunu tətbiq edənlər tərəfindən adi hal kimi baxılması artıq simasızlığın son həddidir. Həmin o simasızlıq elə bir həddə çatıb ki, konkret faktlara istinad edilərək, dəfələrlə edilən iradlara baxmayaraq, hələ də haqlı tərəf hədəf olaraq qəbul edilir və barəsində absurd fikirlər səsləndirilir, üstəlik, haqlı tərəfə təsir və təzyiqlər üçün bütün vasitələ əl atılır, lazım gələndə təcavüzkara belə bütün istiqamərlərdə, hətta hərbi baxımdan da yardımlar edilir. Bununla bağlı haqlı narazılıqlara baxmayaraq, məhz Fransa rəsmilərinin timsalında bəziləri simasızlıq nümayiş etdirməkdə israrlı görünürlər və bunu özləri üçün də qəbuledilən hesab edirlər.

Cənubi Qafqazda sülhün, təhlükəsizliyin davamlı şəkildə təminatı üçün real olaraq, Azərbaycanın atdığı addımlar dəstəklənməli, təqdir edilməli halda, Fransanın timsalında Avropanın hansısa bir ölkəsinin rəsmilərinin vaxtaşırı rəsmi Bakıya hədyanlar ünvanlaması həm simasızlıq, həm də həyasızlıqdır. İşğalçı bir ölkəni silahlandırmaqla, həmin ölkəyə hərbi dəstək verməklə münaqişəni qızışdırmağa çalışan bir ölkə rəsmiləri utanmadan, qızarmadan günahsız tərəfi, Azərbaycanı hədəfləyir və bəzən təkcə rəsmi Bakıdan deyil, dünyanın bir çox ölkə rəsmilərindən belə ədalətsizliklərinə görə tutarlı cavab alsalar belə bundan nəticə hasil edə bilmirlər. Çünki elə bil, artıq simasızlığa bərk öyrəncəlidirlər və gönləri də elə qalınlaşıb ki, deyilənlər onların qalınlaşmış gönlərinə qətiyyən nə təsir etmir, nə də batmır.

### Fransa XİN rəhbərinin danışıqlarının heç bir normalara sığışmadığı dərhal özünü göstərir

Fransanın Azərbaycana qarşı təxribatları nə bitmək bilmir, nə də heç bitənə oxşamır. Xüsusən də Parisdə ABŞ dövlət katibi Antoni Blinkenlə birgə brifinqdə çıxış edən Fransanın xarici işlər naziri Stefan Sejurnenin "Azərbaycanın meydan oxuduğu" Ermənistanın ərazi bütövlüyü məsələsini müzakirə edib dəyə bildirməsi təsdiq edir ki, bu Avropa ölkəsinin rəsmiləri qətiyyən həya-ar etmək niyyətində deyillər. Həmin o Sejurnedən soruşmaq ayıb olmasın, Azərbaycan nə zaman Ermənistana meydan oxuyub? Rəsmi Bakının öz haqqını tələb etməsi meydan oxumaqdırmı? Görəsən həmin o XİN rəhbəri Stefan bir zamanlar Ermənistan tərəfindən işlədilən, "yeni müharibə, yeni ərazilər" kimi ifadələrdən xəbərsizdir ki, "meydan oxumağın" necə olduğunu dərk etmir? Yoxsa özünü bilməməzliyə, xəbərsizliyə vurmaqla yaxasını kənara çəkmək niyyətindədir? Nə qədər özünü qanmazlığa vursa belə 30 illik işğal faktından da xəbərsizdir ki, bəyəm? Hər şeydən xəbərsizdirsə, əvvəla onun həmin kürsüdə nə işi var idi, digər tərəfdən də xəbərsiz ağzına gələni danışa bilərmi? İstənilən halda Fransa XİN rəhbərinin danışıqlarının heç bir normalara sığışmadığı özünü göstərir və simasızlığını bir daha təsdiq edir.

### Stefan Sejurne həddini aşır və məhz özünün ritorikası artıq nəzarətdən çıxıb

"Azərbaycanın ritorikasının nəzarətdən çıxdığını nəzərə alsaq, biz çox narahatıq. Biz Bakıdan gələn saxta xəbərlərin də artdığını görürük və onlar eskalasiyada Ermənistanı günahlandırmağa meyllidirlər, baxmayaraq ki, Ermənistan bundan yayınmağa çalışır. Hörmətli Entoni, düşünürəm ki, Bakıda keçiriləcək COP29 sammitinə 6 ay qalmış biz buna həddindən artıq diqqət yetirməliyik", deyə Stefan Sejurnetin bəyan etməsi isə artıq həyasızlığın ekstremum nöqtəsidir. Ona görə ki, Sejurne həddini aşır və məhz özünün ritorikası nəzarətdən çıxıb. Yenə də həmin o Sejurneyə üz tutub soruşmaq istərdik ki, Azərbaycanın ritorikası niyə nəzarət altında hesab olunmalıdır axı? Bəyəm o başa düşmür ki, Azərbaycan müstəqil, suveren ölkədir və ritorikasında da, bəyanatlarında da kimlərdənsə asılı sayıla bilməz? Bir Avropa ölkəsinin XİN rəhbəri bu qədər məsuliyyətsizdir, yoxsa ona bu məsuliyyətsiz davranış şansı verən Makron kimi ağasından istifadə edərək həyasızlıq və simasızlıq edir? Hər halda bizə də dünya ictimaiyyətinə də Fransa rəsmilərinin ədalətsiz, ikiüzlü mövqeyi çoxdan bəllidir və istər Sejurne olsun, istərdə də Makron, hər biri sayıqladıqda, ədalətsizcəsinə ikiüzlülük nümayiş etdirəndə özlərinin necə simasız olduqlarını ortaya qoymuş olurlar.



### Yalan danışmaq, simasızlıq etmək elə Sejurnenin özünə qalıb, çünki Fransa XİN rəhbərinin kimliyi dərhal bəlli olub

Blinkenin özü belə öz çıxışında Ermənistan-Azərbaycan münasibətləri mövzusuna toxunmayıb. O zaman Stefan Sejurne Ermənistanın ərazi bütövlüyü məsələsini kiminlə müzakirə edib? Bu yekəlikdə yalanı uyduran həyasız heçmi simasızlıq etməkdən utanmır? Bəli, hətta ABŞ dövlət katibi Azərbaycan prezidenti İlham Əliyevə də zəng edib. Dövlətimizin başçısı da öz növbəsində hər zamankı kimi inandırıcı və qətiyyətli şəkildə Stefan Sejurnetin səsləndirdiyi yalan fikirləri təkzib edib. Dövlət başçısı vurğulayıb ki, Azərbaycan 2022-ci ildə Praqada keçirilən müşavirədə qəbul edilmiş bəyanata və Almatı bəyannaməsinə sadiqdir. Bir sözlə, yalan danışmaq, simasızlıq etmək elə Sejurnenin özünə qalıb və Blinken də vəziyyətin necə olduğunu və Fransa XİN rəhbərinin kimliyini bu dəfə tam dəqiqliyi ilə müəyyən edə bilib. Daha doğrusu, onun öz prezidenti makron kimi simasızlığına əminliyi daha da artıb. Çünki ermənipərəst mövqe tutan, Cənubi Qafqaz regionunda müharibəni qızışdırmaq siyasəti həyata keçirməyə çalışan rəsmi Paris nümayəndələrinin məhz ölkə rəhbərimiz tərəfindən necə sərt və aydın şəkildə ifşa edilməsinin növbəti nümunəsi Blinkenin qarşısına qoyulub. Bununla hətta Blinken bir daha əmin olub ki, Fransa Xarici İşlər Nazirliyi rəhbərinin açıqlaması odun üstünə benzin tökmək siyasətinin bir nümunəsidir.

### Azərbaycan Prezidentinin XI Qlobal Bakı Forumunda vurğuladıqları fonunda Fransa rəsmilərinin dedikləri simasızlıqdır

Azərbaycan Prezidenti cənab İlham Əliyevin bu yaxınlarda XI Qlobal Bakı Forumunda "Parçalanmış dünyanın bərpası" mövzusunda söylədiyi fikirləri də Blinken çox güman ki, unutmayıb. "Biz inanırıq ki, sülh əldə edilə bilər. Bizim istədiyimiz budur. Biz tarixi ədaləti və beynəlxalq hüququ bərpa etdik. İndi isə regionda düşmənçiliyə son qoymağın vaxtı çatıb", deyə Azərbaycan Prezidenti cənab İlham Əliyevin XI Qlobal Bakı Forumunda vurğuladıqları nəinki Blinkenin heç bütün dünya siyasətçilərinin də diqqətindən yayına bilməz. Hər kəs gördü və əmin oldu ki, dövlətimizin başçısı açıq şəkildə göstərdi ki, indi Qarabağ məsələsi bağlanıb və biz sülhə çox yaxınıq. Bütün bunların fonunda məhz Fransa XİN rəhbəri Stefan Sejurne maksimum həyasızlığa əl ataraq yalan danışır və simasızlıq etməkdən çəkinmir. Ona görə çəkinmir ki, onun prezidenti Makron özü belə "bu şəkildə" davranır. Ona görə çəkinmir ki, Fransanın Ermənistandakı səfiri Olivye Dekotininin özü belə kinli şəkildə etiraflar edir. "Ermənistana verilən Fransa silahları döyüş məqsədi daşımasaydı, Azərbaycan hər dəfə iddialarla çıxış etməzdi", deyən fransalı diplomat Olivye Dekotini öz kinini gizlətmək belə istəməyib. Əksinə, işğalçıya dəstəyə görə həyasızcasına, simasızcasına hələ bir öyünmək kimi bir istəyə də düşüb. O, utanmazcasına əlavə edib ki, Fransa KTMT üzvünə silah verən ilk NATO ölkəsidir və iki ölkə arasında yenidən əməkdaşlığa hərbi hazırlıq və fransız təlimatçıların yardımı da daxildir. Bütün bunlar əlbəttə, onu göstərir ki, Paris ümumiyyətlə sülh deyil, Cənubi Qafqaz regionunda yeni müharibə istəyir, amma həmin ölkənin rəsmiləri isə tamamilə başqa prizmada özlərini göstərməyə çalışırlar ki, elə bunun da adı simasızlıqdır.

### Qanun Azərbaycanın tərəfindədir və fransalı rəsmilərin ortaya qoya biləcəkləri ancaq simasızlıqları ola bilər

Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tam bərpası, Ermənistan tərəfindən işğal olunmuş 20 faiz ərazilərinin, böyük siyasi biliyə, siyasi uzaqgörənliyə, siyasi təfəkkürə, iradəyə, qətiyyətə sahib olan dövlətimizin başçısının, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi, xalqımızın həmrəyliyi, ordumuzun rəşadəti və cəsarəti ilə işğaldan azad edilməsi ölkəmizin uğurlu və prinsipial mövqeyinin məntiqi nəticəsidir. Bu, ABŞ və Fransa da daxil olmaqla, aparıcı dünya dövlətlərinin xoşuna gəlib-gəlməməsindən asılı olmayaraq ədalətin, haqqın qələbə çalması nümunəsidir. Müsyö Sejurnet dirsəklərini qəzəblə dişləsə də, ovuclarını dırnaqları ilə dağıtsa da heç nəyi dəyişə bilməyəcək. Çünki Azərbaycan öz haqq işi uğrunda mübarizə aparıb, yenə də aparır və beynəlxalq hüququn bütün norma və prinsipləri də bizim tərəfimizdən böyük həssaslıqla gözlənilir. Bir sözlə, Fransanın Ermənistandakı səfiri Olivye Dekotinidən tutmuş, həmin ölkənin XİN rəhbəri Stefan Sejurneyə, hətta prezident Emmanuel Makrona qədər hər bir fransalı rəsmi nümayəndə nə qədər atılıb-düşsə də qanun Azərbaycanın tərəfindədir və onların ortaya qoya biləcəkləri ancaq simasızlıqları ola bilər. Bu simasızlara isə bir şeyi xatırlatmaq istərdik ki, onların ölkəmizə müraciət etmək məqsədilə seçdikləri ton və ritorikadan hələ də bir çox suverenlik və müstəqillik atributlarından məhrum olan, hər zaman da yeni himayədar axtarışında olan Ermənistana münasibətdə istifadə edilə bilər.

### "Ciddi şeylərə ciddi reaksiya vermək lazımdır", deyən İtaliyanın baş naziri fransalı rəsmilərə dərs verib

Fransalı siyasətçilərin, ələlxüsus da rəsmilərin məsuliyyətsiz bəyanatlarından tutmuş, yalanlarına qədər bütün simasızlıqları dünyanın bir çox inkişaf etmiş ölkələrinin rəsmiləri, liderləri tərəfindən də tənqid edilib və edilməkdədir. Məsələn, İtaliyanın baş naziri Giorgia Meloni şəxsən martın sonunda Fransa prezidenti Emmanuel Makronun Avropa qoşunlarının Ukraynaya göndərilməsi ideyası ilə bağlı özünün fikir ayrılığını açıq şəkildə bildirib. Bir sözlə, heç də Makronla eyni fikirdə olmadığını birbaşa və kəskin şəkildə bəyan edib. Bununla həm də Makrona bir mesaj vermiş olub ki, onun və başqalarının yerinə danışmağa cürət etməsin, əks halda bu şəkildə cavab almış olacaq. O, siyasətçilərin çıxışlarında istifadə etdikləri tonda diqqətli olmalarının lazım olduğunu belə qarşı tərəfə izah edib və əlavə edib ki, özü də heç vaxt belə tondan istifadə etməyib. "Ciddi şeylərə ciddi reaksiya vermək lazımdır", deyən İtaliyanın baş naziri Giorgia Meloni fransalı rəsmilərin məsuliyyətsiz fikirlər səsləndirmələrinin qəbuledilməzliyinə işarə vurub. Bu, Makronun və onun kimi digər fransız rəsmilərin siyasi edamının daha bir nümunəsi sayıla bilər.

### Sejurne, eləcə də, Dekotini və Makron kimilərinə ancaq simasızlıq qalır

Eyni şəkildə kəskin fikirlərlə İtaliya Xarici İşlər Nazirinin müavini Edmondo Cirielli də Fransa Xarici İşlər Nazirliyinin rəhbəri Sejurneyə ünvanlanıb. Edmondo Cirielli Fransa XİN rəhbərini və ümumilikdə həmin ölkə rəsmilərini kəskin şəkildə qınayıb. "Azərbaycan və Ermənistan arasında atəşkəs hər iki ölkənin məsuliyyəti sayəsində möhkəmlənib, lakin... tərəflərdən başqa hansısa ölkə nümayəndələrinin hər hansı bədbəhtən bəyanatı gərginliyi artırma riski daşıyır", deyən Cirielli haqlı olaraq qeyd edib ki, Sejurnenin və onun kimi rəsmilərin bəyanatları Cənubi Qafqazda sülhün qurulmasında vasitəçilərin səylərinə ancaq ziyan vurur. Həqiqətən də belədir və İtaliya Xarici İşlər Nazirinin müavini tərəfindən deyilən bu fikirlər təsdiq edir ki, reallığı elə bütün dünyada çox aydın şəkildə görünür və qəbul da edilir və Sejurne, eləcə də, Dekotini və Makron kimilərinə ancaq simasızlıq qalır.

***Müəllif: İnam Hacıyev***

# Ermənistanın bitməyən mina terroru

## 3429-a yaxın vətəndaşımız minalardan zərər çəkib, onlardan 595-i həyatını itirib



Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində Azərbaycanın döyüş meydanında qazandığı Zəfər bütün dünyaya yayıldı və ölkəmizin qısa bir zamandakı hərbi əməliyyatı, taktikası dünya ölkələri tərəfindən böyük maraqla qarşılandı. Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi ilə cəbhədə Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbələr vurmaqla, onları torpaqlarımızdan "iti qovan kimi" qovaraq məğlub etməsi 30 ilə yaxın işğal altında olan tarixi torpaqlarımızın azad olunması ilə nəticələndi. Artıq Azərbaycan işğaldan azad olunan torpaqların abadlıq-quruculuq işlərinə başlayıb. Həyata keçirilən layihələr bu ərazilərin dirçəlməsinə səbəb olur. Azərbaycan Prezidenti İlham Əliyev müsahibələrini birində bildirdiyi kimi, "Biz çox böyük sürət götürmüşük və əsas məqsədimiz keçmiş qaçqınları və köçkünləri tezliklə öz yurdlarına qaytarmaqdır, onlar həddsiz çox gözləyiblər. Mən bu barədə demişəm, bir daha demək istəyirəm ki, bizim əsas maneəmiz, əsas rəqibimiz zamandır". Artıq 6 minə yaxın insan öz ata-baba yurduna qovuşub.

Təbii ki, qısa bir zaman məsafəsində bütün ərazilərin tam abadlaşması bir qədər çətindir. Belə ki, erməni təcavüzkarları işğal altında olan ərazilərimizi darmadağın edərək xarabazarlıqlara çeviriblər. Azərbaycan Prezidenti İlham Əliyevin söylədiyi fikirləri xatırlatmaq yerinə düşər. "Mən Bakıdan Füzuliyə, Cəbrayıla, Zəngilana, Qubadlıya, Laçına qədər və digər istiqamətdə Kəlbəcər və Laçın tərəfdən yüzlərlə kilometr yol qət etmişəm, orada hər şey dağıdılıb", - deyən Prezident qeyd edib ki, dağıntıların miqyası elədir ki, insan, sadəcə, mat qalır: "Axı, bu ərazi sahəsinə görə Livana bərabərdir. Təsəvvür edin, dünyada heç də ən kiçik olmayan bir ölkənin Livanın ərazisinə bərabər ərazini tikmək, abadlaşdırmaq lazım gələcək. Bunu, sadəcə, təsəvvür etmək üçün dedim. Orada heç nə yoxdur, nə yol var, nə işıq, nə qaz, nə su. Heç nə. Tamamilə heç nə". Bəli, belə bir vəziyyətdə olan torpaqlarımıza qovuşduq.

### MİNA QURBANLARININ 357-Sİ UŞAQ, 38-İ İSƏ QADINLAR TƏŞKİL EDİR

Bu gün həmin ərazilərdə genişmiqyaslı layihələr icra olunur. Bir sıra magistral avtomobil yolları, dini-tarixi abidələr, infrastruktur layihələri icra olunub və bu davamlı həyata keçirilir. Yollar, elektrik xətləri, su xətləri, hava limanları, dəmir yolları salınır. Əlbəttə ki, bu gün işğaldan azad olunan ərazilərin minalardan təmizlənməsi də əsas məsələlər sırasındadır. Bildiyimiz kimi, Ermənistan Ağdam, Füzuli və Zəngilan rayonlarında basdırdığı tank və piyada əleyhinə minaya dair xəritələrini Azərbaycana təhvil verib. Bu Azərbaycan Prezidentinin həyata keçirdiyi uzaqgörən siyasətinin məntiqi nəticəsi idi. İlk olaraq Ağdamda, daha sonra isə Füzuli və Zəngilanda basdırılmış minaların xəritələrinin Ermənistandan alınması on minlərlə vətəndaşın, o cümlədən, minatəmizləyənlərin həyatının təhlükədən xilası deməəkdir. Minaların təmizlənməsi maliyyə itkisi ilə yanaşı, vaxt itkisinə də səbəb olur. Ermənistanın basdırdığı minalar mülki əhalinin təhlükəsizliyi, sağlamlığı və həyatı üçün ciddi təhlükə törədir və ya azad edilmiş ərazilərdə sosial-iqtisadi inkişafa mane olur. İkinci Qarabağ müharibəsi başa çatandan bu günə qədər 350 nəfər vətəndaşımız mina qurbanı olub, onlardan 65-i həlak olub, 285-i ağır yaralanıb. Ümumilikdə, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün başladığı dövrdən indiyədək 3429-a yaxın vətəndaşımız minalardan zərər çəkib, onlardan 595-i həyatını itirib. Mina qurbanlarının 357-si uşaq, 38-i isə qadınlar təşkil edir. Əlbəttə ki, bu xəritələri verilməsi işğaldan azad edilmiş ərazilərdə tikinti və yenidənqurma layihələrinin tez bir zamanda reallaşmasına səbəb olar.

Bildiyimiz kimi aprelin 4-ü Beynəlxalq Mina Xəbərdarlığı və Minatəmizləmə Fəaliyyətinə Yardım Günü kimi qeyd olunur. Azərbaycan minadan əziyyət çəkən bir dövlətdir.

Azərbaycan Ermənistan tərəfindən ərazilərimizin 30 ilə yaxın davam edən hərbi işğalı zamanı, habelə hazırkı postmünaqişə dövründə mina təhdidindən əziyyət çəkən, çoxsaylı mina qurbanları verib. Ermənistan tərəfindən hətta postmünaqişə dövründə belə davam etdirilən mina təhdidi bölgədə aparılan bərpa və yenidənqurma işlərini, keçmiş məcburi köçkünlərin öz torpaqlarına qayıdışı prosesini ləngitməklə yanaşı, vətəndaşlarımızın həyat və sağlamlıqları üçün ciddi təhlükə mənbəyi olaraq qalmaqdadır.




### NİFRƏT VƏ DÖZÜMSÜZLÜYÜN NÖVBƏTİ TƏZAHÜRÜDÜR

44 günlük Vətən müharibəsi və münaqişənin bitməsindən sonra belə Ermənistan üzərinə götürdüyü öhdəliklərinə zidd olaraq, Laçın yolundan qeyri-qanuni məqsədlər, o cümlədən mina təhdidinin davam etdirilməsi məqsədilə istifadə edib. Beynəlxalq Mina Xəbərdarlığı və Minatəmizləmə Fəaliyyətinə Yardım Günü münasibətilə Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda qeyd olunduğu kimi, 2022-ci ildə Laçın və Kəlbəcər rayonlarının ərazisində 2021-ci il Ermənistan istehsalı olan 2700-dən çox piyada əleyhinə minanın aşkar edilməsi bu faktı təsdiqləyir. 2023-cü ilin sentyabr ayında antiterror tədbirlərindən sonra, Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində və bu ərazilərin perimetrləri boyunca 500 mindən artıq mina basdırıldığı faktının aşkarlanması bu təhdidin miqyasını sübut edən faktlardır. Bu, eyni zamanda, son onilliklər ərzində Ermənistan tərəfindən guya minaların istehsal və ixrac olunmadığı barədə bəyanatların heç bir əsasının olmadığını nümayiş etdirib. Ermənistan tərəfindən davam etdirilən mina təhdidi nəticəsində demək olar ki, gündəlik əsasda baş verən mina partlayışları zamanı postmünaqişə dövründə ümumilikdə 350 nəfər azərbaycanlı mina qurbanına çevrilib. Onlardan 50 nəfər mülki şəxs, 15 nəfər hərbi qulluqçu olmaqla, 65 nəfər həlak olub. İndiyədək baş vermiş mina hadisələrinin coğrafiyası, onların əksəriyyətinin keçmiş təmas xəttindən kənarda, xüsusilə mülki obyektlərin, yaşayış məntəqələrinin, habelə məzarlıqların yerləşdikləri məkanlarda baş verməsi Ermənistanın mina təhdidinin məqsədyönlü şəkildə mülki əhali arasında itkilərin çox olmasına yönəldiyini sübut edir. Bu da öz növbəsində Ermənistan tərəfindən azərbaycanlılara qarşı mövcud etnik nifrət və dözümsüzlüyün növbəti təzahürüdür. Qeyd edək ki, elə bu günlərdə, aprelin 2-də Ağdam rayonunun işğaldan azad edilmiş Sarıcalı kəndi ərazisində mina təmizləmə işləri aparan Azərbaycan Minatəmizləmə Agentliyinin (ANAMA) əməkdaşı 1987-ci il təvəllüdlü Əliyev Xəyyam Qəmbər oğlu xəsarət alıb və istifadə olunan texnikaya maddi ziyan dəyib. Bəyanatda o da vurğulanır ki, ölkəmiz tərəfindən bu təhdidə son qoymaq məqsədilə minalanmış ərazilərin xəritələrinin Ermənistan tərəfindən təqdim edilməsinə dair dəfələrlə çağırışlara baxmayaraq, bu ölkə uzun bir müddət ərzində ümumiyyətlə belə xəritələrin mövcudluğunu inkar edib. Beynəlxalq ictimaiyyət tərəfindən göstərilən təzyiqlər nəticəsində təqdim olunmuş, minalanmış ərazilərin kiçik bir hissəsinin əhatə olunduğu məlumatların etibarlılığı isə cəmi 25% təşkil edib. Son dövrlərdə baş verən mina hadisələrinin 55%-dən çoxu təqdim olunmuş məlumatların əhatə etdiyi ərazilərdən kənarda baş verib. Ermənistan tərəfindən mina təhdidinə münasibətdə sərgilənən davranış postmünaqişə dövründə bölgədə dayanıqlı sülh və etimad quruculuğu istiqamətində görülən tədbirlərə daha bir zərbədir.

### BEYNƏLXALQ İCTİMAİYYƏTƏ ÇAĞIRIŞ

Beynəlxalq Mina Xəbərdarlığı və Minatəmizləmə Fəaliyyətinə Yardım Günündə Azərbaycan bir daha beynəlxalq ictimaiyyəti Ermənistanın mina təhdidinin qınanılması, bu ölkə tərəfindən mina xəritələrinin təqdim olunması, eləcə də Azərbaycanda mina təhdidinin aradan qaldırılması istiqamətində dəstək göstərmək məqsədilə ardıcıl tədbirlər görməyə çağırır.

Bu gün əlbəttə ki, azad edilən ərazilərdə minaların və partlamamış döyüş sursatlarının aşkarlanması və zərərsizləşdirilməsi üzrə tədbirlər davam etdirilir. Təhlükəsiz hərəkət üçün yollar minalardan təmizlənir. Onu da qeyd edək ki, mina partlayışları nəticəsində həyatını itirən insanların sayının artması nəticəsində Ermənistanı minalanmış ərazilərin xəritələrini verməyə məcbur etmək məqsədi ilə Azərbaycan tərəfindən dünya ictimaiyyətinə, beynəlxalq qurumlara və təşkilatlara, o cümlədən BMT-nin Baş Katibliyinə, BMT-nin İnsan Hüquqları Şurasına, Avropa Şurasına və Avropa İttifaqına müraciət ünvanlanıb.

Azərbaycan bu istiqamətdə ardıcıl işlər görür. Xatırladaq ki, ötən ilin mayın 25-də Ağdamda "Mina təhlükəsi ilə mübarizə - dayanıqlı inkişafa gedən yol" mövzusunda 2-ci beynəlxalq humanitar minatəmizləmə konfransı keçirilmişdi. Keçirilən konfrans mina təhlükəsi ilə mübarizə istiqamətində qlobal həmrəylik nümayiş etdirərək, yeni tərəfdaşlıqlar qurmaq və minasız dünyaya yol açacaq konkret fəaliyyət planları hazırlamaq üçün bir imkan yaratmaqda əhəmiyyətlidir. Konfransda 51 ölkəni təmsil edən 160-a yaxın rəsmi şəxs - sabiq dövlət və hökumət başçıları, bir sıra ölkələrin parlament üzvləri, BMT baş ofisinin rəhbər heyəti, nüfuzlu beynəlxalq təşkilatların, minatəmizləmə sahəsində fəaliyyət göstərən qurumların, eləcə də Azərbaycanda akkreditə olunmuş diplomatik korpus nümayəndələri iştirak ediblər. Ağdamda keçirilən konfransda münaqişədən zərər çəkmiş bölgələrdə infrastrukturun təhlükəsiz bərpası, keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına təhlükəsiz qayıtması, regionda davamlı sülhün bərqərar olması, habelə investisiya proqramlarının həyata keçirilməsi üçün humanitar minatəmizləmə fəaliyyətinin əhəmiyyəti və Dayanıqlı İnkişaf Məqsədləri ilə birbaşa bağlılığı ətrafında müzakirələr aparılıb. Qeyd edək ki, ANAMA və BMT-nin birgə təşkilatçılığı ilə reallaşan konfransın əsas məqsədi ölkəmizin üzləşdiyi mina probleminin miqyası və törətdiyi fəsadları beynəlxalq ictimaiyyətin və mina təhlükəsi ilə mübarizədə maraqlı olan tərəflərin diqqətinə çatdırmaqdır. Bundan başqa, problemin qlobal xarakter daşıdığını nəzərə alaraq, konfrans humanitar minatəmizləmə üzrə milli və qlobal Dayanıqlı İnkişaf Məqsədinin təqdim edilməsini, bu istiqamətdə birgə tərəfdaşlıq və dəstəyin gücləndirilməsini hədəfləmiş oldu.



Ermənistan minalanmış sahələrin tam xəritələrini verməsə də, bu gün artıq Azərbaycan işğaldan azad olunan ərazilərdə abadlıq-quruculuq işlərini davam etdirir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Seriallar, dizilər: aldıqları verdiklərindən çox...



Serialların, dizilərin həyatımıza daxil olması da müasir texnologiyanın yeniliklərindəndir. Elə ki, sovet dövrü başa çatdı, standart televiziya formasından çıxdıq, müasir antenlər, kabel televiziyaları sərhədləri aşmağımızla, dünyanın evimizə gəlməsi ilə nəticələndi. Bu, o vaxt idi ki, hələ ölkəmizin televiziya məkanında çoxseriyalı filmlərdən söhbət getmirdi. Lakin biz artıq türk, rus və Rusiya və Türkiyə telekanallarının dublyaj edərək təqdim etdiyi xarici ölkələrin-Amerika, Almaniya, Yaponiya və sair, xüsusilə Meksika seriallarına baxmaqdaydıq. Sovet imperiyası dövrünün xüsusi və senzuralı televiziya məkanından yenicə azad olunmuş insanlar sanki azadlığa çıxıblarmış kimi bu serialların bir saniyəsini belə ötürmürdü. Elə serial meyli də o zaman yaranmağa başladı. Elə olurdu ki, bir seriala bütövlükdə ailə tamaşa edirdi; yaşından, təhsilindən, dünyagörüşündən asılı olmayaraq sanki hər kəs axtardığını həmin seriallarda tapmağa çalışırdı. Beləliklə, biz səhv şəkildə serial izləmək prosesinə başladıq ki, bu, sonralar serial xəstəliyinə çevrildi.

Bu xəstəlik ildən-ilə irəlilədikcə, bizdən elə dəyərləri aldı ki, bir də baxdıq ki, onların aldıqları yanında verdikləri heç nədir. Belə isə seriallardan, dizilərdən, onların müasir dövrdə həyatımızda oynadığı roldan danışaq.






## Seriallar, dizilər bizdən nələri aldı?..

Öncə vurğulayaq ki, biz Rusiya telekanallarında izlədiyimiz çoxseriyalı filmlərə onların deyimi ilə "serial", Türkiyə telekanallarında izlədiklərimizə isə "dizi" deyirik. İllərdir ki, serial və dizi xəstəsinə çevrilmişik. Serial və dizi izlədiyimiz üçün ailələrimizdə yüzlərlə problemlər baş verib, ilkin olanları sadalayaq; ər işdən gəlib, yeməyi hazır görməyib; evi dağınıq, mətbəxi çirkli qabla dolu görüb; uşaq bağçada, məktəbdə qalıb, ana onu götürməyə yubanıb; uşaq saatlarla ac qalıb, ana isə televizor qarşısında; uşağın əlinə telefon verilib ki, səsi kəsilsin, ana isə serial, dizi izləyib, nəticədə isə uşağın nitq qüsurları yaranıb; uşaq evdə qalmaqdan vitamin çatışmazlığı ilə əziyyət çəkməyə başlayıb, ana isə onu açıq, günəşli havada gəzdirməyə çıxarmaq əvəzinə, dizini, serialı üstün tutub; bir televizor olan evlərdə ər futbola baxmaq istəyəndə arvadın serial saatı olub, dava-dalaş haraya qalxıb, həftələrlə küsülülük yaranıb; serial, dizi səbəbi ilə neçə-neçə televizorlar ər-arvad qalmaqalının qurbanı olub, zibilliyə atılıb, yerinə kreditlə götürüləni qoyulub, lakin kredit bitmədən yeni qalmaqala görə o da əvvəlki televizorun yanına gedib; əvvəllər bir evdə bir televizor olardı, uşaqböyük üçün də bəlli saatlar olardı, hər kəs öz saatında televiziya izləyərdi, lakin serial və dizilər həyatımıza daxil olandan sonra evlərdə iki televizora ehtiyac olduğu ortaya çıxdı; kimi kreditlə, kimi hansısa vacib ehtiyacını bir kənara qoymaqla evinə ikinci televizoru da aldı ki, nədir-nədir ər-arvad arasında dava-dalaş başlamasın; iki televizor ailələrin bir-birindən saatlarla aralı qalması ilə nəticələndi; uşaqlar özbaşına qaldı, dərslərinə kömək üçün ataya müraciət edəndə ananın yanına, anaya müraciət edəndə atanın yanına göndərildilər; "səs salma" deyilərək otaqdan-otağa qovulan uşaqlar ya dəhlizə, ya mətbəxə, ya da öz otaqlarına sığınaraq başlarını nə iləsə qatmağa çalışdılar.



## Bir də baxdıq ki...

Bilmirəm, hələlik dərk edirik, yoxsa etmirik, yaxşı-yaxşı baxsaq görərik ki, uşaqlarımızı serial və dizilərə çoxdan qurban vermişik. Ata öz serialının, ana öz dizisinin seyrçisinə çevrildikcə, bunlar uşaqlarımızın tərbiyə zamanını, təlim vaxtını bizdən qoparıb. Yadımıza sala bilərikmi, son dəfə uşaqlarımızla birlikdə hansı bir Azərbaycan filmini izləmişik? Və yaxud da gedək məktəblərdə sorğu keçirək, görək, 1-ci sinifdən 11-ci sinfədək uşaqlardan neçəsi Azərbaycan filmlərindən 3-nün adını ardıcıl saya biləcək? O filmlər ki, mənəvi, ailə dəyərlərimizin və milli mentalitetimizin saxlanc yeridir.

Baxsaq, görərik ki, serial və dizilərə baxa-baxa uşaqlarımızla aramızda olan körpünü öz əllərimizlə yandırmışıq. Onlara gün ərzində cəmi 1-2 saat ayıra bilirik, ya bilmirik. Uşaqlarla son dəfə nə vaxt oturub dərdləşmişik, problemləri ilə maraqlanmışıq? Onlarla birlikdə dərs hazırlamağı belə unutmuşuq. Uşaqlarla oynamağı, gəzintiyə çıxmağı çoxdan unutmuşuq.

Biz o vaxt ayılırıq ki, bir övladımız intihar edir və ya intihar etməyə cəhd göstərir. Bu zaman isə sanki qəflət yuxusundan oyanıb günahın kimdə olmasını axtarmağa başlayırıq. Məktəbə hücum çəkir, uşağımızın sinif yoldaşları ilə danışmağa başlayırıq. Axı bu uşağa nə oldu, nə üçün belə bir hərəkətə qərar verdi, deyir, günahı özümüzdən başqa hər kəsdə axtarmağa başlayırıq. Nədənsə anlamaqda çətinlik çəkirik ki, biz son dəfə nə vaxt bu uşaqla maraqlanmışıq, onunla söhbət edib iç dünyasını öyrənməyə, ona dayaq olmağa çalışmışıq...

Bir də baxırıq ki, uşaq 5-6 yaşına çatıb, danışa bilmir. Bu dəfə serialımızın bir bölümünü təxirə salıb xəstəxanaları qapı-qapı gəzirik. Həkimlər deyir ki, bəs uşaq o qədər tək qalıb, danışdıran olmayıb ki, nitqi gecikib. Buna əməlli-başlı müalicə lazımdır. Nə bilim loqopedə aparılmalı, kurs-kurs müalicə almalıdır.

Bir də baxırıq ki, qızımız, oğlumuz gəlib 8-10 yaşına çatıb, məktəbdə uşaqlara qaynayıb-qovuşa bilmir. Deyirik ki, bu uşaq niyə belə oldu? Nə bilim filan nənəsi belə idi, filan bibisinə, xalasına çəkib. Lakin anlamaqda çətinlik çəkirik ki, biz serialların qarşısında saatlarla oturan zaman uşağa "səsini kəs",- deyib onu bir küncə sıxışdırmışıq. Həmin küncdə uşaq o qədər səssiz-səmirsiz, hərəkətsiz qalıb ki, indi məktəbdə sinif yoldaşları ilə ünsiyyət qura bilmir, bir sözlə, sosiallaşmaqda əziyyət çəkir.

Bir də baxırıq ki, yeniyetmə oğlumuzdan siqaret qoxusu gəlir. Nə yaxşı da ki, seriallar bu qoxunu almağa imkan verir. Həmin an sanki bizə çatır ki, uşaq əldən gedir. Bu zaman düşünməyə başlayırıq ki, bu siqaretin axırı yaxşı olmaya bilər. Uşaq pis yola düşər, aldadıla bilər. Bu gün dodağına siqaret dəyən uşağımız sabah başqa bir vasitəni dodaqlarına apara bilər.

*Ardı Səh. 11*

# Seriallar, dizilər: aldıqları verdiklərindən çox...



Əvvəli Səh. 10

Bu zaman başlayırıq uşağa dişimizin dibindən çıxan sözləri deməyə: sən getdin kimə çəkdin? Mən sənə belə tərbiyə vermişdim? Nə üçün bizi öldürürsən, kimlərə qoşulmusan, kimlərlə oturub-durursan? Lakin bircə dəfə anlamağa çalışmırıq ki, bütün bunları aylar öncə nəzarətə götürməli idik. Uşağa vaxt ayırıb onunla maraqlanmalı, yeri gələndə dost, yeri gələndə düşmən olmaqla, onu təkbaşına buraxmamalı idik. Atanın öz serialına, ananın öz dizisinə başı qarışanda, uşağın aqibətinin belə olacağını nə üçünsə üzərimizə götürmür ki, götürmürük. Və bütün bunlar kimi onlarla misal söyləmək olar...

## Ailələrimizi dağıdan serial, dizilər...

Serial xəstəliyi evimizdən, azyaşlı uşaqlarımızdan savayı, həm də gənc oğlan və qazlarımıza, hətta özümüzə də zərər verir. Axı hamı serial və dizidəki hadisələri eyni cür qavraya, dərk edə bilmir. Böyük əksəriyyət serial və dizi izləyərkən onu real həyata çox yaxınlaşdırır və düşünür ki, bizim də həyatımız belə olmalıdır, lakin nə üçün belə deyil. Və yaxud da dizidə bu hadisə belədirsə, bu qadın bu addımı atırsa, bu kişi bunu edirsə, biz də edə bilərik. Lakin axı əslində belə deyil. İstənilən ölkənin film və serialları ən yüksək səviyyəli həyatları təqdim edir. Biz nə üçünsə həmin filmlərdəki aşağı səviyyəli həyatları görə bilmir, öz həyatımızın da həmin yuxarı səviyyəli həyatlara bənzəməsini qarşımıza məqsəd qoyuruq. Hansı ki, o həyatlarla bizim real həyatımız arasında yerlə göy qədər fərq var.

Serialda qadın belə geyinir, biz də geyinməliyik. Kişi filan maşını sürür, biz nə üçün sürməyək? Ən pisi isə serial-dizilərdəki qadın-kişi, valideyn-övlad münasibətlərindən pay almağımızdır. Məsələn, gənc qızın anaya "mənim işlərimə qarışma", gənc oğlanın otağının qapısını atanın üzünə çırpıb "mən tək qalmaq istəyirəm", deməsi kimi. Qadının



həyat yoldaşı ilə hesablaşmaması, kişinin həyat yoldaşını bəzi hərəkətləri ilə təhqir etməsi kimi. Və onlarla sadalaya biləcəyimiz bir-birinə oxşar misallar...

Bütün bunların hamısını serial və dizilər bəxş edib bizlərə. Bunları söyləməklə məqsədimiz bütün serial-diziləri pisləmək deyil. Bəli, sanballı dizilər var, onlarda öyrənməli, dərs götürməli, əxz etməli çox məqamlar var. Lakin gündəlik, təxəyyül məhsulu olan dizilər də var və düşünəndə ki, insan övladının əksəriyyəti pisi götürməyə meyllidir, bəli, çoxseriyalı filmlərdə yetərincə belə məqamlar var. Onları da ki, götürən götürəndir. Bu səbəbdən də ailələr dağılır, ailə münasibətlərinə xələl gəlir, ər-arvad münasibətləri kəskin şəkildə pozulur. Bir sözlə, biz özümüzün olanlarla deyil, dizilərdəki həyatları yaşamaqla özümüzə zərbə endiririk. Bu özünü istər ər-arvad, valideyn-övlad, istərsə də qohum-əqrəba münasibətlərində aydın şəkildə göstərir. Xüsusilə qayınana-gəlin münasibətlərinə isə birbaşa təsir göstərir.

## Serial xəstəliyindən romantika mərəzinə

Gənc oğlan-qızlarda isə serial xəstəliyi yeni bir mərəz formalaşdırıb: romantika xəstəliyi. Qızlarımız sevgililərindən artıq dizilərdəki kimi böyük gül buketləri, bahalı hədiyyələr qəbul etmək, onlarda dizilərdəki maşınlardan olmasını, bahalı kafe-restoranlarda əylənmək istəyirlər. Oğlanlar özlərini serial qəhrəmanlarına bənzədib xüsusi "əda" nümayiş etdirilər. Maşını onlar kimi qeyri-adi sürməyə, qapısını çırpmağa çalışırlar.




Seriallardakı geyimlər isə lap çoxdan gənc qız və oğlanlara sirayət edib. Artıq hər bir serialda gördüyümüz gənc qız və oğlanların geyimlərini gündəlik həyatımızda hər addımda görürük. Saç forması, makiyaj da eynilə.

Qızlarımız hətta evlənmək təklifini də seriallardakı romantik şəkildə almaq istəyirlər. Sosial şəbəkələrdə tez-tez qarşılaşdığımız videolar, paylaşmalar bunu deməyə əsas verir. Kimi ona alınan böyük ölçülü gül buketini, kimi ad gününə hədiyyə olunan lent və güllərlə bəzədilmiş maşını, kimi romantik evlənmə təklifini, kimi dəbdəbəli-eyni ilə seriallardakı nikahını, kimi hamiləliyini, kimi uşağın cinsiyyət "partisini" və sair nümayiş etdirir. Bütün bunlar isə bizə serial və dizilərdən gəlir. Zəif gənclər baxır və öz həyatlarına da tətbiq etməyə çalışırlar.

Lakin bütün bunları etməyə bütün gənclərin də imkanı, gücü çatmır. Bu səbəbdən də romantika xəstəliyini daha ağır şəkildə yaşayanlar var. Arzularının da qarışdığı bu xəstəlik gündən-günə onları məhv edir, bunların istənilən birini həyata keçirmək üçün çox halda ümumilikdə həyatlarından, mövqelərindən məhrum olurlar.

Beləliklə, serial və dizilər yaxşılarla bərabər, pisləri də təlqin edir, lakin biz nə üçün yaxşıları yox, pisləri həyatımıza tətbiq etməyə çalışırıq, elə maraqlı olan da budur...

## Serial və dizilərin mövzusuna gəlincə...

Serial və dizilərin mövzusuna, baş verən hadisələr ətrafında gedişata gəlincə isə demək olar ki, 3-4, bəzən 5 il davam edən dizilərə rejissorlar elə hadisələr əlavə edib onun reytinqini qaldırmağa, gündəmdə saxlamağa çalışırlar ki, adam olanlara bəzən inana belə bilmir. Yəni, reytinq üçün hadisələr məhvərindən çıxıb yeni bir axara düşür. Belə olanda isə tamaşaçı onsuz da əksəriyyətinin süjet xətti normal olmayan dizilərin axarında itib-batır.

Məsləhətdir ki, bu gün hər birimizin evində çağırılmamış qonaq olan serial və dizilərdən bir qədər kənar olmağa çalışaq. Birincisi, onların böyük əksəriyyətinin həyat reallığından kənar olduğu üçün. İkincisi, bu serial və dizilərin bizim coğrafiyamızdan, mühitimizdən, ailə dəyərlərimizdən, tərbiyəmizdən çox uzaq olduğu üçün. Üçüncüsü isə yuxarıda da qeyd etdiyim kimi, aldıqları verdiklərindən çox olduğu üçün. Bu səbəblərdən də onların yerini başqa faydalı əyləncələrə, məsələn, kitab oxumaq, ev işləri ilə məşğul olmaq, ailə qayğıları ilə maraqlanmaq, uşaqların tərbiyəsi, gələcək üçün xeyirli vətəndaş yetişdirmək, körpələri təmiz havaya çıxarmaq, yemək, şirniyyat hazırlamaq, daha hansısa faydalı, bacardığımız bir iş üçün ayırmaq lazımdır.

Əks təqdirdə bizim cəmiyyətimizə, mentalitetimizə uyğun olmayan, çoxlarımızın həyatı ilə təzad təşkil edən serial və dizilər qarşıda bizdən çox şeylər alacaq. Sonrakı peşmançılığın acı nəticəsini yaşamamaq üçün bu gün özümüzə qayıtmaq zamanıdır... Qayıdaq ki, peşman olmayaq!



***Mətanət Məmmədova***

# ABŞ və Avropa İttifaqı bölgədən nə istəyir?











Keçmiş sovetlər birliyi tənəzzülə uğradıqdan və digər respublikalarla bərabər Azərbaycan da öz müstəqilliyini bəyan etdikdən sonra beynəlxalq aləmdə bərqərar olmaq, suveren bir ölkə kimi beynəlxalq birliyin tam hüquqlu üzvü olmaq yolunda inamla irəliləməyə başladı. Müstəqilliyin ilk illərində buraxılan boşluqlar, səriştəsiz və praqmatik olmayan yanlış xarici siyasət Ulu Öndər Heydər Əliyev tərəfindən zərgər dəqiqliyi ilə işlənib hazırlanmış yeni siyasi kursla zaman-zaman aradan qaldırılmaqla ölkə beynəlxalq aləmdə ilbəil yerini möhkəmləndirdi və dünyanın əksər dövlətləri, xüsusən də ABŞ və Aİ ölkələri ilə balanslaşdırılmış, qarşılıqlı hörmətə əsaslanan bərabərhüquqlu əlaqələrini möhkəmləndiməyə başladı. Heç şübhəsiz, 1994-cü ilin sentyabrında imzalanan Əsrin Müqaviləsi və bundan sonrakı digər beynəlxalq meqalayihələr həm iqtisadi, həm də siyasi nöqteyinəzərdən əhəmiyyətli tarixi rol oynadı. Lakin az keçmədi ki, qərb dövlətləri keçmiş sovet respublikalarından "demokratik" dəyərlərlə bağlı vaxtı yetişməmiş və ya milli dəyərlərimizə hayqırı tələblər irəli sürməyə başladılar.

Görkəmli ingilis siyasi və dövlət xadimi Çörçillin bir fikrini xatırlatmaq istərdim: "Demokratiya cəmiyyətin idarə olunmasında heç də ən yaxşı metod deyil. Ancaq hələ ku, bəşəriyyət bundan yaxşısın icad eləmiyib..." Çörçillin bu fikri tam yerində deyilmiş qiymətli kəlamdır. Əvvələ demokratiyanın bir konkret tərifi var: dövlətin idarə edilməsində xalqın iştirakı, cəmiyyətin idarə edilməsində aşağı təbəqənin rəyinin nəzərə alınması, söz və mətbuat azadlığı! Qısa və konkret! Söhbət xalqın, milli toplumların idarə edilməsində xalqın iştirakını nəzərə almaqdan gedirsə, bu yerdə hər bir xalqın milli dəyərləri, milli mentaliteti və milli xüsusiyyətləri hökmən nəzərə alınmalıdır. Əks-təqdirdə millət öz milliliyindən uzaqlaşar ki, bu da daha mənfi tendensiyalara səbəb ola bilər.

Yaxın keçmişimizdə, 1990-cı illərin ortalarında demokratiya mövzusu mətbuatda və televiziyalarda gündəlik geniş müzakirə olunan mövzulardan birincisi idi. Bir sıra qərbpərəst siyasətçilər Azərbaycanda məhz qərbin demokratik dəyərlərinin inikasını istəyir və bunun uğrunda mübarizə aparırdılar. Məhz bu mübarizənin ən öncüüllərindən biri olan, indi əri Ariflə avropada oturub Azərbaycanın tarixi qələbələrini qəsbkarlıq kimi təqdim etməyə çalışan Leyla Yunus adlanan bir zat o zaman ANS telekanalında boğazını yırtırdı ki, demokratiyanın millisi olmur. Yaxşı xatırlayıram onun rusca səsləndirdiyi "Demokratiya ne mojet bıt natsionalnı, ili mejdunarodnı. Demokratiya yest demokratiya. Libo on yest, libo on net!"cümləsini. Ancaq mühafizəkarlar kimi tanınan əksər siyasətçilər qərbin demokratik dəyərlərinin olduğu kimi Azərbaycana tətbiq edilməsinin əleyhinə idilər. Təbii olaraq xalqın, cəmiyyətin dövlət idarəetməsində fəallığını artırmaqla yanaşı, milli mental dəyərlərə uyğun gəlməyən bir sıra prinsiplər rədd edilirdi. Dövlət idarəetmə aparatı cəmiyyətdən gələn bütün bu sifarişləri nəzərə alaraq ölkədə demokratik cəmiyyətin qurulması, lakin qərbin bir sıra demokratiya pərdəsi altında maskalanan dəyərlərinin ölkəmizə transferinə imkan verməməyə çalışırdı.Bu mübarizənin getdiyi həmin dönəmdə türkiyədə bir kitab nəşr edildi: "Azərbaycanda demokrasi: addım-addım təslimiyyat". Çoxları kimi mənim də diqqətimi çəkən bu kitabı tam oxuyub birtirdikdən sonra bir sıra qaranlıq məqamlara aydınlıq gəldi. Kitabın yazılmasında əsas məqsəd Azərbaycan xalqını qərbin demokratiya oyunlarına çox da aludə olmamağa, "demokratiya" adı altında Azərbaycanı qərbin təsir dairəsinə sürükləməyin başlıca məqsəd olduğunu və belə biy siyasi oyunda təslimçiliyə aparan yolda ehtiyatlı davranmağın vacibliyini Azərbaycan türklərinə anlatmaqdan ibarət idi. Qərb "demokratiya"sını Azərbaycana ixrac etmək istəyən ABŞ və Avropa institutlarının Azərbaycanda hansı QHT-yə, hansı media qurumuna nə qədər vəsait ayırdığı da həmin kitabda faktlarla əks edilmişdi və məlum oldu ki, qərb istəklərini Azərbaycanda reallaşdırmaq üçün həmin QHT-lərdən və media qurumlarından maşa kimi yararlanır. Məhz dövlətin, siyasi elitanın qətiyyəti, müdrikliyi, səbr və təmkini on illər boyu aparılan "qərb demokratiyası" oyununun iflasına gətirib çıxardı və nəticədə o zaman qərb dairələrində təlimat alan çox siyasilər, vətəndaş cəmiyyəti institutları yanlışlıqlarının fərqində oldular.

Mənim həm o zama, həm də bu ğun şəxsi düşüncəmə görə bütün digər sahələrdə olduğu kimi, demokratik cəmiyyətin qurulmasında da xalqın, cəmiyyətin milli mental dəyərləri mütləq nəzərə alınmalı və özünün demokratiya modelini yaratmalıdır. Əks-təqdirdə mental dəyərlərə əsaslanmayan, anarxiyaya aparıb çıxaracaq qərb mentalı üzərində formalaşan bir demokratik cəmiyyət ciddi fəlakətlərlə üz-üzə qalacaq ki, bunun rüşeymlərini müstəqilliyimizin ilk illərində gördük.Tək bir faktı nümunə göstərəcəm. Qərb ölkləri cinsi azlıqlarlın hüquqlarını tanıyır, hətta eynicinslilərin evliliyini normal qarşılayır. Bu "dəyər" bizdə tətbiq olunmalıdırmı? Tətbiq olunarsa nələr baş verər, təsəvvür edirsinizmi? Məsələn, cinsi azlıqlar məsələsini demokratiya adı altında qəbul etməliyikmi?..Yaxud, min illərdi formalaşan ailə institumuzu qərbin anormal ailəçilik fəlsəfəsinə qurban verməliyikmi?..

Dediklərimizdən çıxan nəticə odur ki, ABŞ və Aİ demokratiya, insan haqları, qloballaşma şüarları altında özünün regional geosiyası maraqlarını təmin etməyə çalışırlar. Belə olmasaydı özgə torpaqlarını işğal etmiş, insanların ən ali hüququ olan yaşamaq hüququnu əlindən almış, milyonlarla insanın yüz illər boyu qurub-yaratdıqlarını məhv etmiş, körpə, qoca, qadın olmasına baxmayaraq qarşısına keçən mülki insanları qətlə yetirmiş, ərazilərə ölüm kabusu olan minalarla hasar çəkmiş bir toplumun bu qədər ədalətdən və vicdandan uzaq düşərək müdafiəsinə qalxan qərb dövlətləri az da olsa ədalət tərəzisinə göz yetirərdi. Ədalət olmayan yerdə isə demokratiyadan, insan haqlarından danışmaq, sadəcə gülünc görünür. Demokratiya mövzusunu ona görə bir az geniş şərh elədim ki, ABŞ-nin və Aİ-nin Azərbaycandan istədikləri hər zaman məhz demokratik cəmiyyət prinsiplərinə əməl olunmasını tələb etmək olub (Əlbəttə, alt qatda gizlənən niyyətlərindən də xəbərdarıq - T.N.). Bu gün Azərbaycan demokratiya adı altında qərbin bizə ixrac etmək istədiyi bir sıra iyrəncliklər istisna olmaqla, tam demokratikləşmiş bir cəmiyyətdir. Bunun üzərində çox da dayanmağa lüzum görmürəm. Xırdalasaq çox vaxt aparar. Necə deyərlər, görünən dağa nə bələdçi?

Demokratik Azərbaycanda indi nə axtarır, və ya indi nələrini sırımaq istəyir bizə ABŞ və Avropa İttifaqı? Otuz il ərzində dünyanın ən nəhəng güclərinin həllini boynuna götürdükləri, ancaq həllinə yaxın düşə bilmədikləri, sonda balaca ölkə olan Azərbaycanın özünün həll etdiyi münaqişənin sonuclanmasından hiddətləniblərmi? Sadəcə qürurlarına sığışdıramı bilmirlər ki, kiçik bir ölkə onların otuz ildə həll etmədikləri,(Yəqin ki, həll edtmək istəmədikləri - T.N.) düyünlənmiş bir problemi kiçik bir ölkənin cəmi 44 günə həll etməsini həzm edəmi bilmirlər? Faşist təbiətli bir terrorçu tayfanı himayəsinə alan firənglərin sözü Avropada o qədərmi keçərlidir ki, bütün haqqı, ədaləti, vicdanı, beynəlxalq hüquqları ayaqar altına alıb xincım-xıncım etməkdən çəkinmirlər? Yer kürəsinin azad fikirli bir sakini olaraq şəxsən hansısa ölkənin hansısa bağqa bir ölkə ilə görüşlər keçirməsinə, istədikləri mövzuda müzakirələr aparmasına, birinin digərinə yardım etməsinə normal yanaşır və burda hansısa mənfi tendensiya axtarmağa lüzum görmürəm. Ancaq məqsəd, məram hansısa ölkəyə qarşı addımlar atmaqdan ibarətdirsə və bu addımlar qeyri-obyektivliyə, ədalətsiz yanaşmaya, beynəlxalq hüququn prinsiplərinin pozulmasına yönəlirsə, burda susmaq və belə görüüşləri, danışıqları normal qəbul etmək , sadəcə mümkün deyil. Çox, həm də çox qəribədir, ərazisinin 20 faizi darmadağın edilmiş, minalanmış, işğala məruz qalmış Azərbaycana heç bir dəstək verməyən ABŞ və Aİ bu əməlləri törətmiş terror ruhlu bir ölkəyə, Ermənistana miyardlarla dollar yardım etməyə hazırlaşır. Budumu qərbin ədalət prinsipi? Hələ utanmaz-utanmaz Aərbaycanın dövlət başçısına da telefon açır ki, narahat olmayın, bu görüş Azərbaycana qarşı yönəlik məsələlərin müzakirəsinə həsr edilməyib! Həyasızlığın zirvəsimi deyək, yoxsa bizi ağılsız yerinə qoymaqmı, bilmirəm. Əgər birincisidirsə, həyasızlığın ömrü bizdə 40 gün çəkir. Yox ikincidirsə, adama deyərlər axmaq özansən, necə ki, Azərbaycanın dövlət başçısı mədəni, diplomatik etika çərçivəsində bunu dedi. Əgər məqsəd Qafqazda Sülh (İnanan daşa dönsün-T.N.) yaratmağa yardımdan gedirsə, bunu Qafqqzın bütün parametrlərinə görə ən güclü və böyük dövləti olan Azərbaycansız edə bilməzsən. Məhz bölgənin ən güclüsünü bir kənarda saxlayıb, faktiki vassal layihə-dövlət kimi daim xaricdən dilənməklə əhalisini saxlayan bir ölkə ilə regionun məsələlərinin müzakirəsi aparılırsa, bu yerdə torbanı eşəliyib orda pişik olubolmamasını axtarmağa da ehtiyac yoxdu. Pişiyin quyruğu torbadan çıxıb, dünyanın gözünü deşir. Qorxun ki, pişiyin o quyruğunu kəsib əvvəl burdakı layihənizin (Oxu: Ermənistanın-T.N.)başçılarının, sonra da böyük bacısı Makronun gözünə soxaq...

Qəribə həm də nədir, bilirsiniz? Son məlumatlara görə dünyanın ən nəhəng iqtisadi gücünə malik olan ABŞ-nin xarici borcu 35 trilyona yaxınlaşıb. Ümumdaxili məhsulundan dəfələrlə artıq borcu olan ABŞ Rusiya-Ukrayna, İsrail-Həmas savaşlarına, Tayvana, Afrikanın bəzi ölkələrinə, indi də Qafqazda "yazıq" ermənilərə iqtisadi yardım etməkdə marağı nədir görəsən? Keçəldi, dərman bilir, öz başına yaxsın. Daha keçəlinin altında gizlətdiyi buynuzunu çıxarıb ora-bura niyə vurnuxur? Mən nikbinəm. Nikbinliyimin əsaslı səbəbi də var. Azərbaycan dövləti bu gün möhkəm iradəyə, dəyantəə, səbr və təmkinə, qətiyyətə, diplomatik bacarığa malik qüdrətli şəxsiyyətin rəhbərliyi altında idarə olunur. Belə xaricdən hazırlanan çox oyunların da məhz onun qətiyyəti sayəsində alt-üst olduğunun dəfələrlə şahidi olmuşuq. Qoy ABŞ də, Aİ də, lap elə sözü ağzından, yoxsa hansısa başqa orqanından havaya sovuran Makron da oyun qurmaqda olsunlar. Çox oyunları pozan fateh-lider İlham Əliyev bunu da pozacaq və buna qətiyyən şübhəm yoxdur. Qaldı, indiki geosiyasi oyunların tüğyan etdiyi bir zamanda Azərbaycanın gedəcəyi yola, o da məlumdur: Yolumuz "QIZIL ALMA"yadır. Çingiz xanın Qızıl Ordasının, Şah Xətainin Qızılbaşlarının və Ərtoğrul Qazinin Osmanlısının birgə əkdikləri, bu gün becərməkdə olduğumuz və yaxın gələcəkdə barını dərəcəyimiz QIZIL ALMA! Kainatın ən böyük tuzaqquranlar qənimi olan rəbbim bu yolda bizə yar və yardımçı olsun. Axı türklər rəbbin vuran qoludur və nə zaman dünya nizamından çıxırsa, rəbbim türklərin vasitəsilə onu nizama qaytarır. Yenə o zaman gəlib. Rəbbim məhz türkün əli ilə dünyanı yenidən nizama qaytaracaq, İNŞAALLAH!

***Təhmasib Novruzov***
***Azadlıq Hərəkatçıları İctimai Birliyin sədri, yazıçı-publisist***

# Bu gedişlə hayları gözləyən NÖVBƏTİ FİASKO




***Ermənistanın hərbi potensialının nə dərəcədə zəif olduğunu təkcə haylar deyil, artıq hamı bilir. Təsadüfi deyil ki, həmin ölkəyə yardım etmək istəyən birinci növbədə silah yardımı barədə düşünür. Deməli, işğalçı ölkənin hərbisi ilə bağlı acınacaqlı durum hamıya bəllidir. Üstəlik, Ermənistan hərbi qulluqçularının vəziyyəti də heç kim üçün sirr deyil və işğalçı ölkənin hərbsində olan saysız-hesabsız problemlər də göz önündədir. Maraqlı olan və təəccüb doğuran budur ki, hərbisi belə bir acınacaqlı vəziyyətdə olan, saysız-hesabsız problemlər içərisində boğulan bir ölkə hərbi toqquşmalar haqda necə düşünə bilər?***

## İntihar həddində, psoxoloji sarsıntı içərisində olan erməni əsgəri

Hazırda hayların silahlı qüvvələrindən, onların hərbi potensialından danışmağa belə dəyməz. Ruh düşkünlüyünün, psoxoloji sarsıntının Ermənistanın silahlı qüvvələrində hansı həddə olduğu da hayların hərbi hissələrində baş verənlərdən bəllidir. Təkcə ötən il ərzində Ermənistan hərbi qulluqçularından 54 nəfərinin öldüyü qeydə alınıb. Hətta bu rəqəmin artımdan xəbər verdiyi də üzə çıxıb. Beləki, Ermənistan Baş Prokurorluğunun mətbuat xidmətinin məlumatına görə, ondan əvvəlki ildə 32 hərbçinin öldüyü 2022-ci illə müqayisədə belə halların sayı 69% artıb. Erməni əsgərlər arasında intihar hadisələri də qeydə alınır və digər hallarla müqayisədə bu hal daha böyük üstünlük təşkil edir. Deməli, vəziyyət düşünüldüyündən daha ağırdır. O zaman hayları dingildədən nədir və onlar belə müharibə həvəsinə nəyə arxayın olaraq düşüblər? Hər halda, sonda həmin o intihar həddində olan, psoxoloji sarsıntı içərisində olan erməni əsgəri döyüş meydanına göndərilməli olacaq, fransız əsgəri, yaxud hansısa bir amerikalı yox.

## Ermənistan 44 günlük müharibədəki itkilərindən sonra hələ də öz belini dikəldə bilməyib

Bir-birini əvəz edən statistik göstəricilər Ermənistan ordusunun vəziyyətini çox açıq şəkildə göstərir. Hayların 44 günlük müharibədə düçar olduğu məğlubiyyətləri nəticəsində döyüş qabiliyyətinin xeyli hissəsini itirdikləri hamıya əyandır. Erməni əsgərinin hərbi texnikanı döyüş meydanında qoyub qaçmasından sonra Ermənistana məxsus silah arsenalında hərbi texnikanın olub-olmaması barədə dünya ictimaiyyətində çoxdan təsəvvür formalaşıb. Görünən də budur ki, Ermənistan hələ də bu itkilərdən sonra öz belini dikəldə bilməyib. Ermənistan həm 44 günlük müharibədə qarşılaşdığı məğlubiyyətdən sonra, həm də Azərbaycan Silahlı Qüvvələrinin Qarabağ bölgəsində parlaq şəkildə həyata keçirdiyi bir günlük antiterror əməliyyatı nəticəsində yaranan silah boşluğunu qətiyyən doldura bilməyib. Hansı cəbbəxanası ilə müharibə həvəsinə düşüb axı bizim bu mənfur qonşularımız? Fransanın bir neçə ədəd sınıq-salxaq hərbi texnikasına, yoxsa Hindistanın özü belə istifadə etmədiyi və Ermənistana göndərdiyi silahlara güvənilərək həvəs yaranıbmı? Bu axmaqlığın son həddi deyilmi? Axı həmin hərbi texnika da, həmin silah-sursat da Azərbaycanın hərbi qüdrəti qarşısında bir zərrə belə demək deyil. Elə isə başa düşmürlərmi ki, bu "həvəs" onlara baha başa gələcək və bu yolun sonunda onları gözləyən yenə də məğlubiyyət, yenə də növbəti fiasko olacaq?

## Ermənistan hərbçiləri arasında psixoloji gərginlik, xof və qorxu sindromu anlaşılandır

Hərbi texnika, silah sursat çatışmazlığı problərinə bir də əlavə olaraq, Ermənistan hərbçiləri arasında xidmət zamanı ölüm hallarının artması problemi də, psixoloji gərginliklər də əlavə olunduqda görünür ki, hayların hay-hayı gedib, vay-vayı qalıb. Bu qədər problemlər təsdiq edir ki, ermənilərin hərbi məsələ ilə bağlı ələkləri ələnib, xəlbirləri də göydə fırlanır və belə bir vəziyyətdə atılıb-düşmək ölkənin siyasi intiharı deməkdir. Erməni hərbi ekspertləri özləri də yekdilliklə təkid edirlər ki, Azərbaycanla müharibədə Ermənistan ordusunun fiaskosuna səbəb olan problemlər hələ də aradan qalxmayıb və "dedovşina", yerliçilik, Müdafiə Nazirliyindəki hakimiyyət piramidasında olan korrupsiya elə fiasko üçün nəinki kifayət edir, artıqlaması ilə bəs edir.

Belə bir məqamda haylar arasında, erməni əsgərlər, çağırışçılar və ehtiyatda olanlar arasında Azərbaycan Ordusunun xofunu da qeyd etmək lazım gəlir. Çünki, cəmi 44 gün ərzində 11 minə yaxın fərarisi olan bir ölkənin əsgərlərinin Azərbaycan əsgərindən necə qorxduğunu elə həmin o qeyd olunan faktla təsdiq etmək mümkündür. Üstəlik, axı həqiqətən də Azərbaycanın əsgər oğulları, döyüşçüləri qısa zaman kəsiyində igidliyin, ərliyin, mərdliyin, cəsurluğun, qorxmazlığın, rəşadətin nə olduğunu haylara başa saldılar. İşğaldan azad olunan digər ərazilər bir tərəfə, Şuşanı azad edən Azərbaycan əsgəri haylar üçün kabus kimi göründü. Şuşanın işğaldan azad edildiyi gün onlara məxsus olan hərbi hospitallara yerləşdirilən erməni əsgərlərinin ancaq bıçaq və tapança gülləsi yarası aldığı müəyyən olunduğu zaman hayların həkimləri belə başa düşmüşdülər ki, onların döyüşçülərini Azərbaycan əsgəri əlbəyaxa döyüşdə belə hala salıb. 44 günlük müharibə bitdikdən sonra döyüş səhnələrini xatırlayan erməni əsgərləri özləri belə etiraf edirdilər ki, Azərbaycan əsgəri kabus kimi peyda olduqda onlar bundan böyük qorxu və sarsıntı keçirmişlər. Haylar etiraf edirlər ki, qorxunun, stresin, həyəcanın, sarsıntının fonunda onlar öz döyüş yoldaşlarına belə atəş açırlarmış. İndi həmin qorxunun daha da artdığını təkzib belə etmək olmaz, çünki Şuşa əməliyyatından üç il sonra, daha dəqiq desək 2023-cü ilin sentyabrında ermənilər üçün daha bir dərs verildi və bir sutkadan da az müddətdə diz çökdürüldülər. İndi haylar yaxşı bilirlər ki, müharibədə özlərinin qaçıb aradan çıxan fərariləri ilə yalçın qayalara dırnaqları ilə qalxan qoç igidlər, Azərbaycanın rəşadətli əsgərləri qarşılaşacaqlar və deməli, qorxu sindromları da bu baxımdan anlaşılan və gözləniləndir. Belə qorxaqcasına müharibə haylara məğlubiyyətdən, fiaskodan başqa nə vəd edə bilər?

Ermənilər başlarına gələ biləcək hadisələrə, hətta ağır nəticələrə görə də özləri cavabdehlik daşıyırlar

Diqqətə çatdıraq ki, Ermənistan Silahlı Qüvvələrinin şərti Ermənistan-Azərbaycan sərhədinin müxtəlif istiqamətlərində birləşməsi və eləcə də hərbi texnikasını cəmləşdirməsi ilə bağlı Azərbaycan Müdafiə Nazirliyi artıq iki dəfə rəsmi İrəvana xəbərdarlıq edib. Bu xəbərdarlıqdan sonra ermənilər başlarına gələ biləcək hadisələrə, hətta ağır nəticələrə görə də özləri cavabdehlik daşıyırlar. Xatırladaq ki, xəbərdarlıqda bu məqam da vurğulanıb. Görünür, Ermənistan-Aİ-ABŞ formatında aprelin 5-nə planlaşdırılan görüş ərəfəsində yeni ağaları tərəfindən Ermənistan yeni hərbi təxribata sövq edilir. Onlara ürək-dirək verilir, vədlər verilir və ruhlandırılırlar. Əks halda, hansısa fikrə, xüsusən müharibə barədə fikrə belə düşməyə hayların qətiyyən cəsarəti çata bilməzdi. Amma haylar başa düşməlidirlər ki, ukraynalılara verilən vədləri, Qərbin Ukraynaya dəstəyini haylara verilən dəstəklə, yaxud veriləcəyi vəd edilən dəstəklə qətiyyən müqaisə belə etmək mümkün ola bilməz. Nəticə isə göz önündədir və hər halda şəhərləri dağılan Ukrayna, dərisi boğazından çıxarılan canavar misalında ermənilərə bir dərs olmalı idi. Yox əgər bundan bir dərs almaq, nəticə çıxarmaq fikrində deyillərsə, buyursunlar, əllərindən gələni əsirgəməsinlər və yolun sonunda qarşılaşacaqları məğlubiyyətə, fiaskoya da indidən hazırlaşsınlar.

## Ermənistanın təxribatına cavabın həmişəkindən daha sərt olacağı gözlənilir

Azərbaycan hadisələrin istənilən istiqamətdə cərəyan edəcəyinə artıq çoxdan hazırdır və Ermənistanın təxribatına cavabın həmişəkindən daha sərt olacağı gözlənilir. Bunu indidən etiraf edən erməni siyasətçiləri də var. Məsələn, Ermənistan parlamentinin deputatı Artur Xaçatryan açıq şəkildə söyləyib ki, Ermənistan cəmiyyəti öz ordusunun gücləınməsini görməyib, Ermənistan hakimiyyəti ordunu gücləndirmək üçün heç nə etməyib. 2050-ci ilə qədər Ermənistan ordusunun dünyanın iyirmi ən güclü ordusu sırasına daxil olacağına 2019-cu ilin avqustunda Nikol Paşinyanın söz verməsinə baxmayaraq, Ermənistan ordusunda qeyri-döyüş şəraitində belə ölüm halları kəskin artdığını bilən erməni politoloqları müharibə olacağı təqdirdə fəlakətlə qarşılaşacaqlarını etiraf edilər. Onlar artıq uzun müddətdir etiraf edirlər ki, Nikol Vovayeviç populizmdə özünü üstələyib, çünki Ermənistanın ordusunun döyüş qabiliyyətinin artırılması məsələsində ciddi irəliləyiş üçün heç bir imkanları da yoxdur, bu istiqamətdə addım da atılmayıb. Elə isə, güvənilən nə ola bilər ki, belə məsuliyyətsiz addımlara rəvac verilir? Hər halda, nə olmasından asılı olmayaraq, istənilən halda nəticə bəllidir və məğlubiyyət, fiasko hayların artıq alınlarına yazılıb, bir növ alın yazısı da sayıla bilər...

***İnam Hacıyev***


## "ABB" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə!

*Hörmətli səhmdar!*

"Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 24.5-ci maddəsini rəhbər tutaraq, "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra - "ABB" ASC) İdarə Heyəti Sizin nəzərinizə çatdırır ki, 20.05.2024-cü il tarixində saat 1500-da Bakı şəhəri, Nizami küçəsi 67 ünvanında Bankın səhmdarlarının növbəti ümumi yığıncağı (bundan sonra - Ümumi Yığıncaq) keçiriləcəkdir.

Bununla yanaşı bildiririk ki, "ABB" ASC-nin Nizamnaməsinin 8.10-cu maddəsinə əsasən səsvermənin qiyabi şəkildə həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Ümumi yığıncağın gündəliyinə aşağıdakı məsələlər daxil edilir:

1. "ABB" ASC-nin kənar auditor tərəfindən yoxlanılmış 2023-cü ilin maliyyə hesabatları və idarəetmə hesabatının təsdiq edilməsi;
2. 2023-cü ilin maliyyə nəticələrinə əsasən "ABB" ASC-nin səhmdarlarına dividendin ödənilməsi;
3. "ABB" ASC-nin Müşahidə Şurasının tərkibi;
4. "ABB" ASC-nin İdarə Heyəti sədrinin təyin edilməsi;
5. "Banklarda korporativ idarəetmə Standartları"nın tələblərinə əsasən "ABB" ASC-də bir sıra əməkdaşların mükafatlarının təxirə salınması;
6. Əlavə səhmlərin buraxılması yolu ilə "ABB" ASC-nin nizamnamə kapitalının artırılması;
7. "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Nizamnaməsinin və "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Müşahidə Şurası haqqında Əsasnamənin yeni redaksiyada təsdiq edilməsi

Ümumi yığıncağın gündəliyinə çıxarılan məsələlər üzrə materiallar və səsvermə bülleteni 13.05.2024-cü il tarixindən Bankın rəsmi internet səhifəsində yerləşdiriləcəkdir.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107-3.2-ci maddəsini və "ABB" ASC-nin Nizamnaməsinin 8.10-cu bəndini nəzərə alaraq qeyd edirik ki, ümumi yığıncağın gündəliyində olan məsələlərə münasibətinizi dəqiq və şərtsiz bildirmək (lehinə, əleyhinə, bitərəf) və imzanız qanunvericilikdə müəyyən edilmiş qaydada (notarial və s.) təsdiq edilmək, habelə şəxsiyyət vəsiqənizin surətini təqdim etmək şərti ilə bülleten formasını bu bildirişdə qeyd edilən qaydada əldə edib, dolduraraq qapalı zərfdə Bakı şəhəri, Nizami küçəsi 67 ünvanına 20.05.2024-cü il tarixədək göndərməklə səsvermədə qiyabi iştirak edə bilərsiniz.

Nəzərinizə çatdırırıq ki, yuxarıda qeyd olunan qaydada təqdim edilmiş zərflərin açılması ümumi yığıncağın keçirildiyi gün Bankın korporativ katibi tərəfindən həyata keçiriləcəkdir.

***"Azərbaycan Beynəlxalq Bankı" ASC-nin İdarə Heyəti***

# Əli Kərimli ”PKK” və ”HDP” ilə yeni əlaqələr qurur

## AXCP funksionerlərinin Səlahəddin Demirtaşı və Tale Bağırzadəni "siyasi məhbus" adlandırmaları təsadüfi hesab oluna bilməz

Siyasətdə uğur qazanmaq, nəticə əldə etmək heç də asan deyil. İctimai rəyin hörmətini və nüfuzunu qazanmaq üçün siyasət adamı xüsusi istedada, bilik və bacarığa malik olmalıdır. Əks hal da siyasətə qoşulması səhrada boş-boş veyillənmək kimi bir şeydir. Bəlkə də o insan siyasətə deyil, başqa bir peşənin arxasınca getsə idi, uğur əldə edə və həm ailəsinə, həm də cəmiyyətə xeyir verə bilərdi. Lakin hikkə, iddia, müəyyən dairələrin təsiri altında olması səbəbindən şəxs bacara biləcəyi peşəni deyil, siyasət də olmağı seçir. Bu isə həmin şəxs üçün uğursuz nəticələr, rüsvayçı hallar yaşadır. Təəssüf ki, ”Ziyanın yarısından da qayıtmaq xeyirdəndir” deyib, siyasətə əlvida deməlidir. Ancaq bu gün Azərbaycan siyasətində, xüsusi ilə də dağıdıcı müxalif düşərgəsində təmsil olunan və özlərini hər vəchlə siyasətçi kimi təqdim etməyə çalışan şəxslər siyasət sükanından bərk-bərk yapışıb, ondan imtina etmək istəmirlər. Baxmayaraq siyasət də olduğu dönəm də heç bir siyasi uğura, ictimai dəstəyə nail ola bilməyiblər. Əksinə cəmiyyət tərəfindən yanlış və səhv siyasət aparmalarına görə ittiham ediliblər, qınaq obyekti olublar. Yenə də ictimaiyyətin haqlı mövqeyinə nəzərə almayıblar. Ətraflarında olan sağlam düşüncəli insanlar partiyalardan istefa veriblər nəticəsi olmayıb, siyasi təşkilatlar fəaliyyətlərini dayandırıb, ancaq yenə də Əli Kərimli, İsa Qəmbər, Arif Hacılı, Rəsul Quliyev kimi vartanvaylar əvvəlki qayda da özlərini partiya sədr qismində təqdim etməkdən əl çəkməyiblər. Fikir verin, AXCP və Müsavat adlı siyasi təşkilatlar yarandıqları gündən on dəfələrlə parçalanmaya məruz qalıblar, əski üzvləri tamamilə partiyalardan istefa veriblər, lakin Arif Hacılı, Əli Kərimli, İsa Qəmbər at kimi üzə dirənib, siyasətdən imtina etməyiblər. Əli Kərimlinin daha çox dirəniş göstərdiyini desək səhv etmərik. Çünki bu üzdəniraq məxluqun 2001- ci ildən AXCP sədrliyini zəbt etdikdən sonra bu təşkilatın ağır günləri başlamış və nəticə də partiya tamamilə yarasız hala düşmüşdür.



### Əski cəbhəçilər partiyada qalıb, Ə.Kərimlini siyasətin zibilliyinə ata bilərdilər

Bir zaman mərhum AXCP sədri Əbülfəz Elçibəyin yanında olan və partiyanın əsas simaları kimi çıxış edən şəxslər Ə.Kərimlinin partiyanın sədrliyini zəbt etməsindən sonra siyasi təşkilatın sıralarını tərk etdilər. Bəlkə də Fazil, Mustafa, Qulamhüseyn Əlibəyli, Asim Mollazadə, Mirmahmud Mirəlioğlu, Əliməmməd Nuriyev, Mirzə Sakit, Qüdrət Həsənquliyev, Nizami Quliyev, Mikayıl Rəhimov, Söhrab Abdullayev, Vaqif Abışov, Azər Həsrət, Yeganə Mehdibəyli, Yaşar Kələntərli, Dünyamalı İmaməliyev, Fuad Mustafayev, Telman Siyabov, Əli Quliyev və digərləri istefa verməyib, AXCP-də qalsa idilər, partiya ictimai maraqlara cavab verə biləcək və daim dövlətin yanında olmaqla dövlətçiliyin möhkəmlənməsinə tövfələr verə biləcək siyasi partiya ola bilərdi. Ancaq Ə.Kərimlinin sədr kreslosunu zəbt edən kimi üzünü xarici maraqlı dairələrə tutması, fəaliyyətini daha çox Azərbaycanın milli və dövlətçilik maraqlarına zərbə vurmaq üzərində qurması əski cəbhəçiləri partiyadan istefa verməkdən başqa çıxış yolu qoymadı. Bu həm də onların zəifliyi və iradəsizliyi idi. Çünki partiyada qalıb, Ə.Kərimlini siyasətin zibilliyinə ata bilərdilər. Ancaq bunu da etmədilər, görünür abır və həyalarına sığındılar, Ə.Kərimli kimi həyasız və arxasını məkrli dairələr söykəmiş məxluqa baş qoşmaq istəmədilər. Məhz əski cəbhəçilərin cılız, yarasız ünsürlərlə əvəzlənməsi Ə.Kərimlinin əl qolunu bir qədər də açmasına imkanlar yaratdı.

### AXCP siyasi təşkilatdan çox, dərnək funksiyasını daşıyır

Bu gün AXCP adlı dərnək və onun başında dayanan Əli Kərimli ölkəmizin maraqlarına zərbə vurmaq və bununla da xarici ağalarından ”malades” almaq üçün hər cür vasitə və üsullardan istifadə edir. O dərəcə xarici ağalarına bağlıdır ki. bütün dünya azərbaycanlıları erməni terrorunun dayandırılması və torpaqlarımızın işğalının aradan qaldırılması üçün birlik və bərabərlik nümayiş etdirdiyi halda bu məxluq erməni maraqlarına xidmət edən mövqe sərgilədi. Vətən Müharibəsi dönəmində bütün siyasi, ictimai təşkilatlar beynəlxalq təşkilatlara erməni terror maşının dayandırılamsı və dinc insanların raket atəşinə tutulmasına qarşı təsirli tədbirlər görməyə çağıran müraciətlər ünvanlayan da, bəyanatlar səsləndirən də Ə.Kərimli Koçaryan, Sarkisyan, Ohanuan kimi separatçı mövqe sərgilədi, heç bir müraciətə qoşulmadı, bəyanlarla çıxış etməkdən imtina etdi. Hətta utanıb çəkinmədən böyük qələbədən sonra qəhrəman əsgər və zabitlərimizi hədəf seçən açıqlamalarla çıxış etdi. Bu azmış kimi internet TV-lərin birinə verdiyi müsahibəsində ”Qarabağda əldə oluna zəfər Koçaryanın, Sarkisyanın torpaqlarımızı işğal etmələrindən artıq ola bilməz” deyə bildirdi.

Bu kimi faktlar təsdiq edir ki, Ə.Kərimli Azərbaycan xalqından ayrı düşüb və dövlətçiyə zərbə vurmaq üçün şeytanla da əməkdaşlıqdan çəkinmir. Əgər belə olmasa idi, Gəəncə hadisələrinə haqq qazandırmazdı, Nardaranda baş verən olayları ”insanların özəl hüquqlarıdır” deyə bildirməzdir. Mətbuata, İnternet TV-lərə müsahibələrində Ə,Kərimli fars-molla rejiminin əmmaməli mollarının əlini öpən ”Müsəlman Hərəkatı Birliyi”nin sədr Tale Bağırzadəni müdafiə edir, onları ”siyasi məhbus” kimi təqdim etməyə çalışır. Halbuki, ”Müsəlman Hərəkatı Birliyi”nin lideri Tale Bağırzadə və onun ətrafında olanlar fars-molla rejiminin müəyyən şəxsləri əlaqələrinin olduğunu gizlətmir və Azərbaycanda ”şəriət rejimi” qurmaq istədiklərini açıq şəkildə bəyan ediblər. Bu təşkilat ölkə əhalisini terrorla, qarşıdurmalarla hədələyirdi. Əli Kərimli bu xislət daşıyıcılarını müdafiə etməklə eyni əqidəni bölüşdüyünü və onlarla həmfikir olduğunu nümayiş etdirir.

### Seymur Həzinin Türkiyədə ”PKK” funksionerləri ilə görüşməsi təhlükəli məsələlərdən xəbər verir

Görünən ondan ibarətdir ki, AXCP-nin siyasi yönümü terrorçuluğa, qarşıdurmalara hesablanıb. Bu yaxınlarda AXCP sədr müavini, Ə.Kərimlinin aparıcı trollarından olan Seymur Həzi Türkiyyədə olarkən ”PKK” lideri Abdulla Ocalanın və ”PKK” -nın radikal qolu hesab olunan ”HDP”-nin sədri Səlahəddin Demirtaşın yaxın ətrafı ilə görüb. Daha doğrusu S.Həzi növbəti dəfə terrorçu təşkilatların nümayəndələri olan Zahid Xəlil, Murad Qaraçöp, Gündüz Özdəmir və Hakan Kurdi ilə görüşməsi və Ə.Kərimlinin salamını onlara çatdırması, AXCP ilə sözügedən terror təşkilatları arasında əməkdaşlığın yeni mərhələsi başladığını göstərir. Xatırlatmaq lazımdır ki, Almaniyalı deputat Frank Şveber Azərbaycanın AŞ PA - da səsvermə hüququnun məhdudlaşdırılması layihəsini irəli sürərkən hazırda həbsdə olan, lakin hələ də ”HDP”-yə sədrlik edən Səlahəddin Demirtaşın adamı Frank Şveberə mövqeni müdafiə etmişdir. İndi isə Ə.Kərimlinin əsas trolu Seymur Həzi terror təşkilatı olan və Frank Şveবereə Azərbaycanla bağlı mövqeyinə haqq qazandıran ”HDP”-dən olan deputatla görüşür və onunla gizli məsələləri müzakirə edir. Hətta S.Həzi ”PKK”ıçı və ”HDP”-çı dostlarına xoş gəlmək üçün ”HDP”-nin sədri Səlahəddin Demirtaşın əsassız yerə həbs olunduğunu bildirir və istər Abdulla Ocalanın , istərsə də ”HDP”-nin sədri Səlahəddin Demirtaşın ”siyasi məhbus” olduğunu qeyd edib. Bu kimi faktlar təhlqkəli oyunlardan xəbər verir. Çünki Türkiyə də fəaliyyət göstərən müxalif təşkilatlar, siyasi partiyalar Səlahəddin Demirtaşın terrorçu qurum rəhbəri olduğunu qeyd edir və onun həbs olunmasını qanunun tələbi olduğunu bildirirlər. Belə hal da AXCP funksionerlərinin terrorçuları ”qəhrəman”laşdırmağa çalışmaları gözlənilən təhlükələrdən xəbər verir. Ən azı Ə.Kərimli ”PKK” və ”HDP” vasitəsi ilə ölkəmizdə terror hadisələri törədilə bilər. Düzdür Azərbaycanda möhkəm dayaqlara malik ictimai siyasi sabitlik mövcuddur. Bununla belə cəmiyyət ayıq sayıq olmalı, Azərbaycan hüquq -mühafizə orqanları tədbirləri gücləndirməlidir. Onu da nəzərə almaq lazımdır ki, Əli Kərimlinin digər müavini Fuad Qəhrəmanlı sosial şəbəkə də paylaşdığı statusunda İsrailin Suriyada konsulluğu bombalaması nəticəsində fars -molla rejiminin iki generalının və əsgərinin öldürülməsini beynəlxlaql hüququn pozulması kimi qiymətləndirib və əmmaməli mollara öz dəstəyini nümayiş etdirib. Bununla Ə.Kərimli həm də fars-molla rejimindən dəstək almağa çalışır. Məhz AXCP-nin terrora meyil edən siyasətə üstünlük verməyə başladığından Azərbaycan vətəndaşları ehtiyatlı olmalı və tədbirli davranmalıdırlar.

***İLHAM ƏLİYEV***



**Elçin Bayramlı**

## Bəşəriyyətin altına qoyulmuş bombalar

Dünyamızda ən böyük təhlükələrdən biri də minalarla bağlıdır. Belə ki, dünyanın müharibələr olmuş ərazilərində milyonlarla mina basdırılıb və bunlar zaman-zaman partlayır və tələfata səbəb olur. Hətta bəzən 2-ci Dünya müharibəsindən vaxtı basdırılmış minaların da partlaması hallarına rast gəlinir. Minalanmış ərazilərin təmizlənməi çox böyük əziyyət, vaxt və xərc tələb edir ki, bu da ciddi çətinliklər yaradır. Minaların qurbanlarının 85 faizi mülki şəxslər, 50 faizi isə uşaqlar olur. Keçən il 5 minə yaxın insan mina qurbanı olub. BMT 70 ölkədə ümumilikdə 110 milyon mina basdırıldığını təxmin edir ki, bu da çox dəhşətli rəqəmdir. Hətta hər mina-nın yalnız 1 insanı öldürəcəyini təxmin etsək belə bu minalardan ölənlərin sayının iki dünya müharibəsində ölənlərin sayından çox olacağı aydındır. Mütəxəssislərin fikrincə, mövcud texnologiyalardan istifadə edərək, bütün planetin minalardan təmizlənməsi 1000 il çəkə bilər və bu təxminən 100 milyard dollara başa gələcək.

Son illərdə minaların qadağan edilməsi üçün beynəlxalq kampaniyalar aparılır. 1997-ci ildə imzalanan müqaviləyə tərəf olan 162 ölkədə mina istehsalı və istifadəsi qadağan edilib. Hindistan, Myanma, Pakistan kimi ölkələrdə isə istehsalı davam edir.

Bir çox ölkələr qonşu ölkələrlə sərhəddini minalayıb. Ən dəhşətlisi isə odur ki, bəzi yerlərdə müxtəlif səbəblərdən mina xəritələri itirilib və ya ərazi işarələnməyib. Beynəlxalq təşkilatlar indiyə qədər basdırılmış minalardan yaxın gələcəkdə milyonlarla insanın həlak olacağını ehtitam edirlər.

Qarabağ və ətraf ərazilər dünya üzrə ən çox minalanmaya məruz qalmış regionlardan biri hesab olunur. Minalar 1990-cı illərin əvvəllərindən bəri Birinci Qarabağ müharibəsi zamanı və ondan sonra həm Azərbaycan, həm də Ermənistan qüvvələri tərəfindən yerləşdirilmişdir. Bölgə minalar və partlamamış hərbi sursatlar səbəbindən dünyada adambaşına düşən ən yüksək qəza nisbətinə malikdir.

Ermənistanın məqsədyönlü siyasəti nəticəsində Azərbaycan dünyada minalar və partlamamış hərbi sursatlar ilə ən çox çirklənmiş ölkələr sırasında yer alır. İşğal dövründə torpaqlarımıza ilkin qiymətləndirmələrə görə 1,5 milyondan artıq mina basdırılıb. Ermənistanın təcavüzü başladığı vaxtdan indiyədək 3500-ə yaxın milki insan minaya düşmüş, onlardan 600 nəfərə yaxını həyatını itirmişdir.

Qarabağda və Ermənistan Azərbaycan arasındakı hazırkı sərhəd xətti boyunca basdırılan minaların sayı barədə dəqiq məlumat yoxdur, lakin məlumdur ki, 1-ci Qarabağ müharibəsi başa çatdıqdan sonra bir neçə il ərzində hər iki tərəf sərhəd boyu minalar düzürdü. Azərbaycan tərəfi öz təhlüksəziliyi üçün 1-ci müharibə dövründə basdırdığı minaları təmizləsə də, Ermənistan bunu etməyib. Ermənistan mina xəritələrini Azərbaycana verməkdən imtina edir, verdiyi bəzi ərazilər üzrə xəritələrdə isə dəqiqlik əmsalı 25%-dir.

2021-ci ilin mart ayında ANAMA və BMT İnkişaf Proqramı arasında Dağlıq Qarabağ münaqişəsi zonasının minalardan təmizlənməsi üzrə əməkdaşlıq sazişi imzalanıb. Bu əməkdaşlıq yeni deyil; son 20 il ərzində ANAMA və BMTİP birgə 800 000 mina və digər partlayıcı qurğunu məhv edib. 2-ci Qarabağ müharibəsindən bəri isə ANAMA tərəfindən 110 mindən artıq mina şakar olunub və zərərsizləşdirilib. Ümumilikdə 9 min kv km-ə yaxın ərazidə minaların olduğu ehtimal edilir.

Azərbaycan tərəfi ərazinin minalardan təmizlənməsini sürətləndirmək üçün müxtəlif ölkələrdən fərqli texnikalar alaraq əraziyə cəlb edib. Lakin ərazi o qədər böyük və minların sayı o qədər çoxdur ki, hələ də basdırılmış minaların böyük əksəriyyətini təmizləmək mümkün olmayıb.

Həmişə ədalətdən, sülhdən, əməkdaşlıqdan dəm vuran beynəlxalq təşkilatlar nədənsə Ermənistana mina xəritələrini Azərbaycana vermək üçün təzyiq etmir. Azərbaycan tərəfi isə çox böyük xərc və zəhmət hesabına əraziləri təmizləməkdə davam edir. Şübhə yoxdur ki, yaxın bir neçə il ərzində minalardan təmizləmə prosesi başa çatacaq və işağldan azad edilmiş ərazilərin hamısına insanların qayıdığı və normal həyatı bərpa olunacaq.

# Aleksandr Razuvayev: “Ermənistan odla oynayır”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük “Vətən Müharibəsi”ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması” istiqaməti çərçivəsində hazırlanıb*










***Politoloq Aleksandr Razuvayev ”Moskva-Baku” portalına müsahibəsində Ermənistanın baş nazirinin niyə yenidən müharibə ilə qorxutması və bunun arxasında nəyin dayandığını şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.***

***- Azərbaycanın Müdafiə Nazirliyi Ermənistanın hərbi texnikasının şərti sərhəddə toplanması barədə məlumat yayıb. Srağagün axşam saatlarında erməni tərəfi Azərbaycanın Naxçıvandakı mövqelərini atəşə tutub. Eyni zamanda Ermənistanın baş naziri bəyan edir ki, guya Azərbaycan hələ də işğal altında olan kəndlər uğrunda müharibəyə hazırlaşır, İrəvan bundan imtina etməyə hazırdır. Bütün bunlar aprelin 5-də Ermənistanın baş naziri, ABŞ dövlət katibi və Avropa Komissiyasının rəhbəri arasında Brüsseldə keçiriləcək görüş ərəfəsində baş verir...***

- Nikol Paşinyanın atdığı addımlar dəhşətli macəra və sözün əsl mənasında ”intihar” kimi görünür. Amma bilərəkdən bu yükü öz üzərinə götürdü. Qərbdən zəmanət alan Nikol Paşinyan müəyyən müddətdən sonra Qarabağa görə qisas almağa çalışacaq. Əslində, buna nə Qərbin, nə də onun ehtiyacı yoxdur. Çünki Qərb hələ də Ermənistana kifayət qədər silah verməyib. Ermənistan Silahlı Qüvvələrinin döyüş hazırlığının səviyyəsi də, son illərin göstərdiyi kimi, çox zəifdir.

Ermənistan qonşuları ilə barışmaq əvəzinə növbəti avantüraya başlayır. Niyə onlar sülh içində yaşamaq istəmirlər? Bəlkə vətəndaşların yaxşı yaşaması daha gözəl olardı? Amma fakt budur ki, Ermənistan istənilən halda Rusiyanın üstünə qaçacaq. Ermənistana həmişə xas olan millətçilik, əvvəllər gətirmədiyi kimi, indi də yaxşılığa aparmayacaq. İrəvanın avantüraları nəticəsində Ermənistan dövlətçiliyi sadəcə olaraq çökə bilər.

Rusiya Ermənistanla ”uyğunlaşmayacaq”, lakin əvvəlki kimi, bütövlükdə Cənubi Qafqazla ”uyğunlaşacaq”, çünki tarixən bu region onun üçün strateji olub, Zaqafqaziya bu gün Rusiyanın sərhəddidir.

Ermənistan KTMT-dən çıxsa, biz bundan da heç nə itirməyəcəyik. Ümumiyyətlə, Rusiya həmişə Ermənistanın mövcudluğunun qarantı olub. Amma indi elə bir məqam yetişib ki, öz milli maraqlarımıza hörmət etmək xüsusilə zəruridir.

Əgər Ermənistan regionda real ”sərt” NATO varlığına çatarsa, Türkiyənin Şimali Atlantika Alyansının üzvü olduğunu unutmamalıyıq. Türkiyə Bakını dəstəkləyəcək. Türkiyə isə Rusiya ilə konstruktiv münasibətlərə malikdir. Bundan nə çıxacaq?

Azərbaycan son illər öz ordusunun qüdrətini, mətanətini mübaliğəsiz olaraq dəfələrlə nümayiş etdirib. Bu çox vacibdir. Təbii ki, Ermənistan hakimiyyətinin guya Azərbaycanın yeni müharibəyə hazırlaşdığı barədə informasiya təbliğatı İrəvanın adi planıdır: müəyyən müddət ərzində Azərbaycanın guya nəsə edəcəyini yalandan bildirir. Bunu bütün dünyada eşitdirmək lazımdır. Sonra da bu çox saxta pərdə altında, Azərbaycanın ittihamı ilə özləri eskalasiyaya səbəb olurlar.

Paşinyan ABŞ və Aİ ilə koordinasiyada sadəcə olaraq Brüssel və Vaşinqtona ”kasıb”, əziyyət çəkən Ermənistana hərbi və iqtisadi yardım göstərmək üçün bəhanə yaradır. Hesab edirəm ki, bu gün Zaqafqaziyada, o cümlədən Azərbaycan və Ermənistanın şərti sərhədində gördüyümüz hər şey buna görə baş verir. Belə ki, ona yardım haqqında sənəd ABŞ və Aİ tərəfindən imzalana bilsin. Hamısı budur. Və bu sənəd Zaqafqaziyanın tarixində dönüş nöqtəsi ola bilər. Əslində bu, Ermənistanın NATO-ya qeyri-rəsmi daxil olmasıdır.

Ermənistanın baş nazirinin əvvəllər işğal olunmuş səkkiz kənddən dördünün Azərbaycana qaytarılmasını ört-basdır etmək üçün ”eskalasiya”dan istifadə etməsi sadəcə olaraq İrəvanın bütün istiqamətlərdə gördüyü işdir. Ermənistan hakimiyyəti hər ehtimala qarşı işğal etdiyi kəndləri Bakıya təhvil verməyə məcbur olmasını belə qurur ki, Ermənistan daxilindəki insanlar üsyan etməsin.

***- Nikol Paşinyanın guya bu il növbədənkənar seçki keçirmək niyyəti ilə bağlı daxil olan məlumatlar barədə nə deyə bilərsiniz?***

- Ermənistanın baş naziri seçkilərə siyasi bəraət qazandıraraq Ermənistanın öz dövlətçiliyinin yeni Avropa səhifəsinə başladığını elan edə bilər. Amerika xüsusi təyinatlıları ona əhali tərəfindən müəyyən dəstək təşkil edəcək. Paşinyan isə seçkilərin nəticələrinə əsaslanaraq bəyan edəcək ki, xalq bizim Avropa kursumuzu dəstəkləyir, Ermənistan əslində həmişə tutduğu kursa, sadəcə olaraq müdaxilə edib.

Yeri gəlmişkən, görürük ki, Ermənistanda və onun ətrafında baş verənlər fonunda Azərbaycan ABŞ-a qarşı tənqidi fikirlərini gücləndirməkdə davam edir. Bu, artıq xüsusi maraq doğurur. Aydındır ki, Rusiya kimi Azərbaycanın da Vaşinqtonun Zaqafqaziyada və onun hüdudlarından kənarda etdikləri xoşuna gəlmir. Problemləri kənardan kimsə yox, region ölkələri özləri həll etməlidir. Az-çox, gördüyümüz kimi, razılığa gəlmək mümkündür. Avropa, Amerika hara, Qafqaz hara?! Onlar qeyri-sabitlik yaratmaq üçün bölgəyə daxil olmaq istəyirlər. Yaxşı, belə bir rolu yerinə yetirməyə razı olan Paşinyanı tapdılar.

Paşinyanı sonda nə gözləyir? Tarixi nəzərə alsaq, hər şeyi gözləmək olar. Bir də erməni ”Avromaydan”ı və Paşinyanın Fransaya uçuşu. Ermənistanın baş naziri odla oynayır. Nəticədə onu həm Qərbin özü, həm də erməni millətçiləri uda bilər.

**Elçin Bayramlı**

SON SƏHİFƏ
SƏS
5 aprel
2024-cü il

# “Tədbir görülməsə uşaqlar ”internet pandemiyasından” əziyyət çəkəcəklər”

*EKSPERT DANIŞDI*



“Bu mövzu dünəndən başlayan, bugün də həll olunmayan və sabahımız üçün ciddi problemlərin yaradacağını açıq göstərən bir mövzudur. Çox təəssüflə qeyd edirəm ki, ölkədə bu istiqamətdə görülməli işlər hələ ki, sənədlərdə, tədbirlərdə söylənilən çıxışlarda qalmaqdadır. Tədbirlər görülməsə uşaqlar ciddi şəkildə ”internet pandemiyasından” əziyyət çəkəcəklər. Təkcə uşaqlar yox, elə böyüklər də bundan öz payını alacaq”. Bu sözləri SİA-ya açıqlamasında İKT üzrə ekspert Rəşad Cəfərov deyib.

Onun sözlərinə görə, qarşısını almaq üçün ölkədə müxtəlif fikirlər səsləndirilir, bəzi addımlar atılır ki, düşünürəm bu addımlarla da fəsadların qarşısını almaq çətin olacaq: ”Misal üçün provayderlərin təqdim etdiyi halal internetlər, mobil qurğularda quraşdırılan bəzi tətbiqlər, ”ağ siyahılar”, xüsusi domen zonalar və s. İnternet o qədər əlçatandır ki, uşaqlar bunu hər zaman hər yerdə əldə edəcəklər. Düşünürəm ki, uşaqları, elə böyükləri, valideynləri də internetdə onları hansı təhlükələrin gözlədiyi barədə məlumatlardırmaq lazımdır. Xüsusən cinayətkarların, zorakı insanların hədəfinə tuş gələ bilmələrini hər kəs bilməli, təhdidləri müəyyən etməyi bacarmalıdırlar. Bax, məncə görülən tədbirlər əsasən bu istiqamətdə olmalıdır”.

Texnoloq sözlərinə davam edərək bildirib ki, hər bir işin, addımın öz mədəniyyəti var: ”Növbədə durmaq, avtomobil sürmək, qonaq qarşılamaq, bax, internetə də belə yanaşma ilə baxmaq lazımdır. İstifadəçilərdə internetdən istifadə mədəniyyəti formalaşmalıdır. Burada onları gözləyən təhlükələr və ya qazana biləcəkləri müsbət məqamları istifadəçi qabaqcadan bilməlidir. İnternet də bir imtahandır, uşaqlarımız ora hazırlıqlı girməlidirlər ki, pis qiymət almasınlar. Uşaqların bu təhlükədən qorunmasını təkcə valideynin üzərinə qoymaq olmaz. Bunun üçün səmərəli, bir daha qeyd edirəm, səmərəli proqramlar müvafiq dövlət qurumları tərəfindən görülməlidir”.

***Ləman***


## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Fransa ÇALXALANIR: pilotlar da tətilə qərar verdilər!




***Fransa tətil və etirazlarla çalxalanır. Artıq ”Air France” aviaşirkətinin pilotları da aprelin 15-də 2 günlük tətil edəcəklər. Bu barədə pilotların həmkarlar təşkilatı məlumat yayıb.***

Hava şirkəti əməkdaşları nəqliyyat sektorunda tətili qadağan edən qanuna qarşı çıxırlar. Sözügedən qanun layihəsi aprelin 9-da Senatda (Fransa parlamentinin yuxarı palatası) müzakirə olunacaq. Pilotlar bu layihənin parlamentin gündəliyindən birdəfəlik çıxarılmasını tələb edirlər.

# XƏBƏRDARLIQ: ”Əmək müqaviləsi bağlamasanız bu hüquqlardan məhrum olacaqsınız!




*MÜTƏXƏSSİS AÇIQLADI*

”Əmək müqaviləsi bağlamadıqda işçilər bir sıra hüquqlarından məhrum olurlar. Belə ki, onlara əmək kitabçası açılmır və iş stajı hesablanmır. Münasibətlərin rəsmiləşdirilməməsi pensiya təminatına mənfi təsir edir. Eyni zamanda, ödənişli məzuniyyət, yəni 21 təqvim günündən az olmayan əsas əmək məzuniyyəti, iş stajına görə əlavə məzuniyyət, əmək şəraitinə və işin xarakterinə görə əlavə məzuniyyət hüququ, hamiləliyə və doğuşa görə qismən ödənişli sosial məzuniyyət hüquqlarından məhrum olurlar və onlarla imzalanmış müqaviləyə xitam verilərkən istifadə edilməmiş məzuniyyətin pul əvəzi verilmir”. Bu sözləri SİA-ya danışan Vergi üzrə mütəxəssis İlqar Əsədov deyib.

Onun sözlərinə görə, əmək xəsarəti aldıqda və ya peşə xəstəliyinə tutulduqda müavinət ala bilmirlər: ”Müvəqqəti olaraq əmək qabiliyyətini itirərsə və xəstəlik vərəqəsi təqdim edərsə də müavinət ala bilmirlər. Həmçinin işəgötürən müxtəlif bəhanələrlə onunla əmək münasibətlərinə Əmək Məcəlləsində göstərilən tələblərə əməl etmədən şifahi qaydada xitam verə bilər. Əmək müqaviləsi bağlandıqda burada hər bir işçinin qəbul olunduğu peşə və ya vəzifə göstərilir. İşçi və işəgötürən bu peşə və ya vəzifə üzrə öz üzərlərinə müəyyən vəzifə və ya öhdəliklər götürürlər”.

Mütəxəssis bildirib ki, əmək müqaviləsi bağlanmadıqda işəgötürən öz üzərinə qanunla götürməli olduğu öhdəliklərdən imtina edə bilər, digər tərəfdən isə, işçinin faktiki olaraq yerinə yetirdiyi işə görə deyil, başqa əmək funksiyalarını yerinə yetirməyə əsas ilə və ya işdən azad etməklə əmək münasibətlərinə xitam verə bilər: ”Əmək müqaviləsinin bağlanmaması işəgötürən tərəfindən işçinin sağlamlığına, əməyin mühafizəsinə, sanitariya və gigiyena normalarına cavab verən iş yeri yaratmaq barədə qanunla nəzərdə tutulan öhdəliyindən imtina etməsinə, iş və istirahət vaxtı üzrə əmək qanunvericiliyinə əməl etməməsinə şərait yaradır. İşəgötürən tərəfindən işçinin sosial müdafiə olunma, güzəşt və imtiyazlardan istifadə etmə, məcburi və əlavə sığortalar və s. kimi öhdəliklərdən imtina etməsi ilə nəticələnir”.

***L. Sərraf***

## ELAN

Bakı Hərbi Prokurunun böyük köməkçisi, ədliyyə mayoru Vəliyev Orxan Elgiz oğluna Baş prokuror Kamran Əliyev tərəfindən verilmiş 460-22 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az

“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 3200